RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 142 (8735) ŞƏNBƏ, 10 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# “Dəmir yumruğ”un müsəlləh əsgərləri

**Tarixin sınaqları xalqın öz potensialını zaman-zaman yenidən kəşf etməsi üçün bir imkan olur. 44 günlük Vətən müharibəsi də bizim üçün böyük bir sınaq idi. Xalq olaraq bu sınaqdan alnıaçıq, üzüağ çıxdıq. Haqq-ədalət uğrunda savaşımız böyük Qələbəmizlə başa çatdı.**

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz torpaqlarımızı düşməndən azad etdi. Parlaq qələbəmiz xalqın milli qürurunu yüksəltdi. Əsrlərin zəfəri olan bu qalibiyyət bizdə özünəinamı gücləndirdi. Cəmiyyətimizdə milli birliyin nə qədər sarsılmaz olduğunu, həlledici anlarda hamının yumruq kimi birləşərək ümumi amal uğrunda çarpışdığını və məqsədə nail olduğunu gördük.

## Gəncliyin gücü

Vətən müharibəsində Azərbaycan gəncliyini də sanki yenidən tanıdıq. Ölkəmizdə nə qədər vətənpərvər, cəsur, qəhrəmanlıq ruhu ilə dolu, bir o qədər də savadlı, sağlam düşüncəli gəncliyin yetişdiyinə hər birimiz şahid olduq. Qələbənin əldə olunmasında cəmiyyətin bütün sosial qruplarından olan insanların fədakar əməyi var. Amma əsas yük əlində silah, qəlbində Vətən sevgisi ilə amansız düşmənin üzərinə atılan gənclərimizin üzərinə düşdü. Buna görə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qələbədən sonra Şuşaya ilk səfəri zamanı qazanılmış zəfərdə gənclərimizin rolunu xüsusi vurğuladı: *“Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. On yeddi ildir ki, mən Azərbaycanın rəhbəriyəm. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi”.*

## Vətənə sevgi və xidmət ruhu

Bizə bu zəfəri qazandıran nəsil xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin yetişdirdiyi nəsildir. Onlar göz açandan ölkəmizi müstəqil görüblər. Azərbaycanı tarixinin ən qüdrətli dövrünə yetirmək üçün aparılan əzmkar siyasət ruhunda tərbiyələniblər. Yeniyetməlikdən özlərində bu siyasətə töhfə vermək istəyi aşılayıblar. Vətən sevgisini necə ifadə etməyi, dövlət üçün necə faydalı olmağı öyrəniblər. Bu nəsli Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizin son onilliklərdə qazandığı parlaq nailiyyətlər yetişdirib. Vətənin qazandığı uğurların, bu uğurlara birlikdə sevinməyin, ucalan bayrağa baxıb fərəhlənməyin nə qədər gözəl hiss olduğunu gənclərimiz Azərbaycanın son illərdəki nailiyyətlərində görüblər. Bu ruhda yetişiblər. Vətənə xidməti sözdə deyil, əməldə yerinə yetirmək, xalqın, cəmiyyətin, malik olduğumuz dəyərlərin gələcəyinə görə məsuliyyət duyğusuna sahiblənriblər.

Deyirlər ki, uşaqlar nəsihətləri gec, örnəkləri isə çox tez qəbul edirlər. Torpaqlarımızı azadlığına qovuşduran gəncliyimizi də məhz nümunələr yetişdirib. Onlar Azərbaycan sevgisini dövlət rəhbərimizdən öyrəniblər. Onun qətiyyətindən güc alıblar. Ali məqsədlərə doğru yoldan heç zaman geri çəkilməməyi, ədalətli olmağı və haqsızlıqla barışmamağı, cəsurluğu, mətinliyi, amallara sadiqliyi dövlət rəhbərimizdən öyrəniblər.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın gördüyü işlər, yaratdığı nümunələr də Azərbaycan gəncliyi üçün böyük bir məktəb formalaşdırıb.

## Düzgün siyasət, sağlam tərbiyə

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ən mühüm istiqamətlərindən biri də məhz Azərbaycan gəncliyinə aiddir. Gənclər siyasəti ümumi dövlət siyasətinin mühüm sahəsi kimi daim diqqətdədir. Ölkəmizdə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, yenilikçi ideyalarının həyata keçirilməsi, ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində bütün addımlar atılır, lazımi şərait yaradılır. Müstəqilliyin bizə qazandırdığı ən böyük töhfələrdən biri də gənc nəslin milli ruhda tərbiyəsi, hərtərəfli inkişafı üçün yaranmış mühitdir. Bu mühiti Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi siyasət formalaşdırmağa başlayıb. Prezident İlham Əliyev isə bu tarixi inkişaf mühitini daha da genişləndirib.

Ölkəmizin müstəqilliyinə Heydər Əliyevin hələ sovet Azərbaycanına rəhbərliyi dövründə Vətənə sevgi, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda yetişdirdiyi gənclik nail oldu. Əfsuslar olsun ki, onda ölkənin siyasi meydanında gənclikdən öz cılız məqsədləri üçün istifadə etməyə çalışan, onları müəyyən məqamlarda üz-üzə qoyan, ölkə gəncliyini böyük hədəflərdən çəkindirib firqə maraqlarına yönəltməyə çalışan, onların düşüncələrində qaragüruh fikirlər aşılayan ünsürlər vardı. Ona görə müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, gənclər siyasətində də kifayət qədər problemlər özünü göstərirdi. Gənclər hakimiyyət uğrunda mübarizəyə, kimlərinsə şəxsi maraqlarının təmin olunması üçün düzgün olmayan fəaliyyətlərə cəlb edilirdi. Yalnız, Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması naminə məqsədyönlü islahatlara başlandı.

Ardı 5-ci səh.

◆ Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası başa çatdı



**İyulun 9-da parlamentin növbədənkənar sessiyasının son plenar iclası keçirilib. İclası Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli aparırdı.**

Cari məsələlərin müzakirəsi zamanı deputatlar Nigar Arpadarai, Rəşad Mahmudov, Razi Nurullayev, Mahir Abbaszadə, Qüdrət Həsənquliyev, Sahib Alıyev, Ramil Həsən, Cavid Osmanov, Müşfiq Cəfərov və Bəhruz Məhərrəmov pandemiya ilə mübarizə, Qarabağ, Zəngəzur iqtisadi rayonlarının yaradılması və seçiciləri düşündürən digər məsələlərlə bağlı fikirlərini bildiriblər.

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli diqqətə çatdırıb ki, gündəliyin ilk 7 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir.

Əvvəlcə parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanun layihəsi (üçüncü oxunuş) üzərində ikinci oxunuşdan sonra aparılmış işlər barədə məlumat verib. Bildirib ki, layihə ilə bağlı bütün məsələlərə aydınlıq gətirilib.

Sənəd səsə qoyulub və 8 fəsil, 23 maddədən ibarət olan “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli növbəti məsələlər - Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “Dövlət rüsumu haqqında”, “Məhkəmə-Hüquq Şurası haqqında” və “İnzibati icraat haqqında” qanunlarda və “Mediasiya haqqında” qanunda dəyişiklik edilməsi barədə layihələrin üçüncü oxunuşu barədə məlumat verib.

Ardı 2-ci səh.

# Avropa İttifaqından İlham Əliyevə tam dəstək

## Azərbaycanı regionun ən çiçəklənən, güclü ölkəsi hesab edən beynəlxalq təşkilat ölkəmizlə əməkdaşlığın inkişafına xüsusi önəm verir

“Avropa İttifaqı Azərbaycanla münasibətlərin uğurla davam etdirilməsi prinsipinə sadiqdir. Azərbaycanla əlaqələrimizi daha da genişləndirməkdən çox şad olarıq. Biz Avropa İttifaqı olaraq regionda sülhə töhfə verməyə hazırıq. Bizim də bu işə köməyimiz dəyərsə, məmnun olarıq”.

Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyinin bu fikirləri təsdiq edir ki, qurum ölkəmizin regiondakı və dünyadakı roluna yüksək qiymət verməklə əməkdaşlığı daha da inkişaf etdirmək əzmindədir.

Ümumiyyətlə, hər bir mötəbər beynəlxalq təşkilatla əməkdaşlıq Azərbaycanın xarici siyasət kursunda əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, rəsmi Bakının bu məsələdə ortaya qoyduğu mövqe həm də respublikamızın yürütdüyü xarici siyasətin məzmununu nümayiş etdirir. Bu məzmun isə Azərbaycanın siyasi kursunun tamamilə müstəqil olduğunu, milli maraqlarımızı, dövlətimizin qlobal miqyasda mövqelərini layiqincə qoruduğunu göstərir. Aİ ilə əməkdaşlıqda da bu xətt özünü aydın göstərir.

Xatırladaq ki, 1999-cu ildə qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi Azərbaycan-Aİ əlaqələrinin hüquqi bazasını təşkil edir. Amma bu o demək deyil ki, Azərbaycan-Aİ münasibətləri 1999-cu ildən başlayır. Buna qədər Aİ ilə münasibətlər TACIS, “Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi” (TRACECA), “Avropaya neft və qazın nəql edilməsi üzrə dövlətlərarası proqram” (INOGATE), “Humanitar yardım” (ECHO) və digər sənədlər çərçivəsində inkişaf etdirilib.

Azərbaycan Aİ-nın təşəbbüskarı olduğu beynəlxalq layihələrdə fəal iştirak edir. Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinin imzalanması ilə təməli qoyulan əməkdaşlıq bu gün müxtəlif istiqamətləri əhatə etməklə münasibətlərə yeni çalarlar gətirir və son illərdə çox ciddi irəliləyişlərlə müşahidə olunur.

Ardı 6-cı səh.



# Gəncədə erməni terrorundan ziyan çəkənlərin bir qisminə kompensasiya ödənilib

Prezidentin “2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında” sərəncamı ilə yaradılmış Dövlət Komissiyası Gəncədə də müvafiq işlər görmüşdür.

Ardı 6-cı səh.

# İstirahəti faciəyə çevirməyək

## Çimərlik mövsümü təəssüf ki, yenə də itkilərlə başlayıb

**Dənizdə üzmək, sahilin narın, qızılı qumları üzərində uzanaraq günəş vannası qəbul etmək yay istirahətini mənalı keçirmək istəyən hər bir insanın arzusudur. Dənizə və okeana çıxışı olmayan dövlətlərdə insanlar bu arzularını gerçəkləşdirmək üçün başqa ölkələrə getməyə məcbur olsalar da, Azərbaycanda təbiətin bəxş etdiyi misilsiz sərvət hesabına çimərliklərdən faydalanmaq mümkündür.**

Belə ki, əlverişli coğrafi mövqeyə malik olan Azərbaycanın şərq sərhədləri boyunca Xəzərin uzanması dəniz istirahətini əlçatan edir. Xəzərin qumlu çimərlikləri Azərbaycanda yay aylarında dənizsevərlərin ən sevimli istirahət yerlərindən birinə çevrilib.

Lakin Xəzərin bütün sahili çimmək üçün yararlı deyil. Bəzi sahilyanı zonaların tullantılarla çirkləndirilməsi dəniz həvəskarlarının təmiz sahildə günəş vannası qəbul etmək, çirkab suların axıdılması isə şəffaf, ziyansız dəniz suyunda üzmək arzusuna imkan vermir. Bu cür ərazidə yay istirahətinin dadını çıxarmaq istəməyənlər ən yaxşı halda oradan bir qədər aralıda suya girməklə, öz aləmlərində sağlamlıqlarını sığortalamış və daha təmiz suya girmiş olurlar.

Ardı 7-ci səh.




# Vaksinin insan həyatında rolu danılmazdır

## Sağlamlığın əsası uşaq yaşlarından peyvəndləmə ilə qoyulmalıdır

**Son iki ilə yaxındır ki, insan sağlamlığının qorunması bəşəriyyəti ciddi düşündürən əsas məsələlərdəndir. Çinin Uhan vilayətində “peyda olan” koronavirusun dünyanı çənginə alması bunu bir qədər də aktuallaşdırıb.**

COVID-19 pandemiyası ilə mübarizədə daha çox diqqət ayrılan məsələ də vaksinasiyadır. Koronavirusun daha geniş yayılmasının qarşısının alınması, eləcə də təsirinin azaldılması istiqamətində aparılan mübarizədə vaksinasiyanın, yəni peyvəndlənmənin mühüm önəm daşıması artıq şübhə yaratmır.

Ardı 7-ci səh.

## Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,2 milyon (altı milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

# Cinayətkarlıqla mübarizə və ictimai asayişin mühafizəsi etibarlı şəkildə təmin olunur



İyulun 9-da Daxili İşlər Nazirliyində (DİN) 2021-ci ilin birinci yarısında cinayətkarlıqla mübarizə, asayişin qorunması və təhlükəsizliyin təmini sahəsində fəaliyyətin nəticələri və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında kollegiya iclası keçirilib.



DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclası açan nazir, general-polkovnik Vilayət Eyvazov bu ilin birinci yarısının növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, xüsusi karantin rejiminə nəzarətin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə və işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyi etibarlı təmin etdiyini vurğulayıb. Ötən altı ayda daxili işlər və prokurorluq orqanları üzrə 14 min 58 cinayətin qeydə alındığını, açılmasının isə xeyli yaxşılaşdığını qeyd edib.

Nazir Prezidentin sərəncamları ilə polisin və Daxili Qoşunların peşə bayramları ərəfəsində də 26 əməkdaşın və 12 hərbi qulluqçunun dövlət mükafatlarına layiq görüldüyünü, rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verildiyini, həmçinin Vətən müharibəsində döyüş tapşırıqlarını yerinə yetirən 1690 hərbi qulluqçunun dövlət təltiflərinə, o cümlədən 4 nəfərə Vətən Müharibəsi Qəhrəmanı adının verildiyini, habelə xidmətdə fərqlənmiş yüzlərlə əməkdaşın və hərbi qulluqçunun mükafatlandırıldığını bildirib.

General-polkovnik V.Eyvazov bütün bunlarla bərabər, fəaliyyətdə nöqsan və çatışmazlıqların mövcudluğunu, onların ətraflı müzakirə edilib əlavə təşkilati tədbirlər müəyyənləşdirilməklə həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini, polis general-leytenantı Seyfulla Əzimov qeydə alınmış cinayətlərin 84,3 faizinin böyük ictimai təhlükə törətməyən və az ağır növlər olduğunu, ötən ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 1,3, adam öldürməyə cəhdlərin 11, oğurluqların 31, soyğunçuluqların 34, quldurluqların 8, avtonəqliyyat vasitələrinin qaçırılmasının 9,6, xuliqanlıqların 6,4, odlu silahın tətbiqi ilə baş verən cinayətlərin 32, yol-nəqliyyat hadisələrinin 0,5, qəzalarda ölənlərin sayının 11, xəsarət alanların sayının 0,5 faiz azaldığını, habelə prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 207 cinayətin açıldığını, axtarışda olan 2200, o cümlədən ağır və xüsusilə ağır cinayətlərdə təqsirləndirilən 248 şəxsin tutulduğunu vurğulayıb.

Hesabat məruzəsində mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş tədbirlərlə 435 kriminal qrupun zərərsizləşdirildiyi, qanunsuz odlu silah saxlayan və daşıyan 110 nəfərin cinayət məsuliyyətinə cəlb edildiyi, ötən ilin altı ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 776 kiloqram çox və ya 1 ton 843 kiloqram narkotik vasitə çıxarıldığı, qanunsuz kultivasiya olunan 140 ton narkotik xassəli bitkinin aşkarlanaraq məhv edildiyi diqqətə çatdırılıb.

Məruzəətrafı çıxışlarda nazirliyin aparatının struktur qurumlarının və ərazi polis orqanlarının rəisləri görülmüş işlər, əldə olunmuş nəticələr, eyni zamanda fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan konkret tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov hesabat dövründə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi polis orqanlarında ümumi işə mənfi təsir göstərən halları nəzərə çatdıraraq diqqəti onların aradan qaldırılması yollarına və qarşıda duran digər vəzifələrə yönəldib, tapşırıq və tövsiyələrini verib. Cinayətkarlığa qarşı mübarizədə, asayişin və daxili təhlükəsizliyin qorunmasında əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsini, şəxsi heyətin daha böyük əzmlə çalışmasını və əməkdaşların peşəkarlığının yüksəldilməsini hər bir polis orqanının rəhbərindən tələb edib.

Ayrıca olaraq narkotiklərlə mübarizənin vəziyyətinə toxunan nazir V.Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib.

Eyni zamanda vətəndaşlara müraciət edərək narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlığın bütün bəşəriyyəti narahat etdiyini, bu bəlaya qarşı mübarizənin Azərbaycanın hüquq mühafizə orqanlarının başlıca vəzifələrindən biri olduğunu, qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcminin ilbəil artması ilə bərabər, ölkəyə gətirilməsinə edilən cəhdlərin çoxaldığını, belə bir vəziyyətin gənclərin narkotik aludəçisi olmaq təhlükəsini artırdığını bildirib.

Problemlə bağlı mediada gedən tənqidi yazıların, sosial şəbəkələrdə aparılan müzakirələrdə səsləndirilən müxtəlif fikirlərin normal hal olduğunu və hər kəsin mövqeyinə və ictimai rəyə hörmətlə yanaşıldığını, bütövlükdə məsələyə cəmiyyətin diqqətindən razılığını ifadə edib. Bu təhlükəni aradan qaldırmaq üçün hər kəsin ümumi işə real köməyinin vacibliyini vurğulayıb. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların məlumatları əsasında müsbət nəticələri olan bir çox əməliyyat tədbirlərinin keçirildiyini bildirib və fəal vətəndaşlıq mövqeyi sərgiləyən şəxslərə təşəkkür edib.

Yeniyetmələr və gənclər arasında aparılan izahat işlərinə də toxunan nazir bu işin konkret həyat nümunələrinə əsaslandıqda daha təsirli olduğunu, bütün hallarda əsas diqqətin ölkədə narkotiklərə tələbatın azaldılmasına yönəlməsinin əhəmiyyətini nəzərə çatdırıb. Eləcə də COVID-19 pandemiyasından əvvəl respublikanın bütün təhsil müəssisələrində antinarkotik mövzusunda davamlı tədbirlərin keçirildiyini, həmin tədbirlərdə gənclər təşkilatlarının fəallığını, ölkədə tətbiq edilmiş xüsusi karantin rejimi ilə əlaqədar antinarkotik təbliğatı sahəsində vətəndaşların köməyinə həmişəkindən daha çox ehtiyac duyulduğunu bildirib. Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən blogerlərdən daha böyük fəallıq gözləntilərinin olduğunu, "Narkotiklərə yox!" devizinin hamılıqla dəstəklənəcəyinə inandığını qeyd edib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcək.

## Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası başa çatdı





*Əvvəli 1-ci səh.*

Bildirilib ki, dəyişikliklər "Mediasiya haqqında" qanunun tətbiqi ilə bağlıdır. "Mediasiya haqqında" qanun qüvvədədir və onun "Məcburi mediasiya" hissəsi iyul ayının 1-dən qüvvəyə minib. Qəbul ediləcək dəyişikliklər isə o məsələnin prosessual əsaslarını yaradır.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

İclasda "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Diplomatik xidmət haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli qanun ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli qanun ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli qanun ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli qanun ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinə üçüncü oxunuşda baxılıb. Sənədlə əlaqədar parlament Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, dəyişiklik xüsusi dövlət orqanından dövlət qulluğuna, dövlət qulluğundan xüsusi dövlət qulluğuna keçən zaman sınaq müddətinin və stajın yenidən tətbiq olunmamasını özündə ehtiva edir.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Sonra Birinci vitse-spiker deyib ki, gündəliyin növbəti üç məsələsi - Mülki Prosessual Məcəllədə, "Dövlət rüsumu haqqında" qanunda və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələridir. Bu layihələr cənab Prezidentin məhkəmə-hüquq islahatları çərçivəsində imzaladığı fərmanın icrası ilə bağlı təqdim olunub. Qeyd edilib ki, İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə iki qanun layihəsi var idi. Həmin iki layihəni birləşdirərək bir sənəd kimi təqdim etmək qərara alınıb.

Əli Hüseynli bildirib ki, qanun layihəsi ictimai müzakirə formatında komitələrin birgə iclasında geniş müzakirə olunub, hüquq ictimaiyyətini, daha çox vəkilləri narahat edən məsələlərə aydınlıq gətirilib.

Hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Sonra Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli diqqətə çatdırıb ki, növbəti məsələ hökumətlərarası müqavilə ilə bağlı olduğuna görə bir oxunuşda müzakirə olunacaq.

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Belarus Respublikasının Müdafiə Nazirliyi arasında ikitərəfli əməkdaşlığın həyata keçirilməsi zamanı məxfi informasiyanın qarşılıqlı ötürülməsinə dair" Müqavilənin təsdiq edilməsi haqqında qanun layihəsi barədə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Bildirib ki, 13 maddədən ibarət sənəddə tərəflərin məxfi məlumatlar üzrə öhdəlikləri öz əksini tapıb.

Sənəd barədə komitə sədrləri Siyavuş Novruzovun, Zahid Orucun, deputatlardan Qüdrət Həsənquliyevin və Fəzail Ağamalının fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq təsdiqlənib.

Əli Hüseynli bildirib ki, gündəliyin növbəti 4 məsələsi uyğunlaşdırma və dəqiqləşdirmə xarakterlidir və bir oxunuşda qəbul olunacaq. Məlumat verib ki, gündəliyin 9-cu məsələsi Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Milli Məclisdə "Dənizçinin şəxsiyyət sənədi haqqında" Əsasnamə qanunla təsdiq edilib. Dəyişikliyə görə, bu iki sənəd bir-birilə uyğunlaşdırılır.

Layihə səsə qoyularaq təsdiqlənib.

Gündəliyin növbəti 3 məsələsi barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli məlumat verib.

Bildirib ki, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində və "Dəniz limanları haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə Bakı Beynəlxalq Dəniz Limanı Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında dəyişiklik edilməsi barədə 11 fevral 2021-ci il Sərəncamı əsasında hazırlanıb.

"Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi isə dəqiqləşdirmə xarakterlidir.

Əli Məsimli diqqətə çatdırıb ki, "Torpaq bazarı haqqında", "Beynəlxalq xüsusi hüquq haqqında", "Dövlət satınalmaları haqqında", "Xüsusi iqtisadi zonalar haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi isə torpaq bazarı, beynəlxalq xüsusi hüquq, dövlət satınalmaları, xüsusi iqtisadi zonalar, ölçmələrin vəhdətinin təmin edilməsi və akkreditasiya sahəsində münasibətlərin "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənməsini nəzərdə tutur.

Sonuncu layihə barədə deputatlardan Rəşad Mahmudovun və Etibar Əliyevin fikirləri dinlənildikdən sonra hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin sonuncu məsələsi - Azərbaycan Respublikası Milli Məclisinin İntizam komissiyasının Əsasnaməsi haqqında qərar layihəsi barədə məlumat verib.

Bildirib ki, Hüquq siyasəti və dövlət quruculuğu komitəsi İntizam komissiyası ilə birlikdə bu sənədin hazırlanması üçün bir müddət layihə üzərində işləyiblər. Bu, qərar layihəsidir və intizam məsələləri ilə bağlı heç bir yeni maddi hüquq normaları yaratmır. Milli Məclisin deputatının intizam məsələləri qanunvericilikdə əksini tapıb. Bu qərar layihəsi isə Milli Məclisin özünün yaratdığı İntizam komissiyasının prosessual əsasları ilə əlaqədardır.

İclasda çıxış edən Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, komitə sədri Siyavuş Novruzov, deputatlardan Tahir Kərimli, Fəzail Ağamalı və Etibar Əliyev bir məsələ ilə bağlı fikirlərini açıqlayıblar. Sənəd barədə danışan Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov deputatların qaldırdıqları məsələlərə münasibət bildirib və bu Əsasnamənin hazırlanmasına verdiyi dəstəyə görə Milli Məclis Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

Sonra qərar layihəsi səsə qoyularaq təsdiqlənib.

İclasa yekun vuran Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli diqqətə çatdırıb ki, bu gün növbədənkənar sessiyanın sonuncu iclasıdır. Növbədənkənar sessiya dövründə parlamentimiz 30-dan artıq qanun və qərar qəbul edib. İnanırıq ki, həm siyasi fəaliyyətimiz, həm də qəbul etdiyimiz qanunlar və qərarlar ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Zəfərdən sonra qarşıya qoyulan hədəflərin əldə edilməsinə kömək göstərəcəkdir.

Əli Hüseynli diqqətə çatdırıb ki, bu dövr ərzində parlamentin beynəlxalq fəaliyyəti də çox səmərəli olub. Birinci vitse-spiker Milli Məclisin rəhbərliyi adından deputatlara təşəkkürünü bildirib və növbədənkənar sessiyanı bağlı elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bununla da Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Beş ayda Azərbaycanın İndoneziya ilə ticarət dövriyyəsi 64 faiz artıb



**İqtisadiyyat naziri Mikayıl Cabbarov İndoneziyanın ölkəmizdəki səfiri Hildi Hamidlə görüşüb.**

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir səfiri yeni təyinatı münasibətilə təbrik edib, fəaliyyətinin ikitərəfli əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminliyini vurğulayıb. M.Cabbarov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini, Ermənistanın işğalçılıq siyasəti ilə bağlı İndoneziyanın qətiyyətli mövqeyinin, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsinin ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb. Nazir Azərbaycanın İndoneziya ilə əlaqələrin genişlənməsində maraqlı olduğunu, əməkdaşlığın inkişafı üçün müqavilə-hüquq bazasının gücləndirilməsinin önəmini diqqətə çatdırıb.

Görüşdə qeyd edilib ki, ticarət ölkələrimiz arasında iqtisadi əməkdaşlığın əsas istiqamətlərindəndir. 2021-ci ilin yanvar-may ayları ərzində Azərbaycanın İndoneziya ilə ticarət dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə 64 faiz artaraq 27 milyon ABŞ dolları təşkil edib. Bununla belə, qarşılıqlı ticarətin artırılması üçün daha geniş imkanlar var. Səfir H.Hamid iqtisadi-ticarət əlaqələrinin inkişafı istiqamətləri barədə fikirlərini bölüşüb, İndoneziya şirkətlərinin nəqliyyat və tekstil sahələrində, işğaldan azad edilmiş ərazilərimizin bərpası məqsədilə həyata keçiriləcək layihələr üzrə əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

Tərəflər sənaye, kənd təsərrüfatı, İKT, kiçik və orta biznes, turizm, idman və sair sahələrdə əlaqələrin inkişafı, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, iqtisadi əməkdaşlıq üzrə birgə işçi qrupun yaradılması, biznes dairələri arasında qarşılıqlı əlaqələrin qurulması, Azərbaycanda və İndoneziyada keçiriləcək beynəlxalq sərgilərdə hər iki ölkənin sahibkarlarının iştirakı, biznes forum formatında Azərbaycan-İndoneziya işgüzar görüşünün keçirilməsi barədə müzakirələr aparıblar.

# Avropa İttifaqı ilə əlaqələrin genişləndirilməsinə dair müzakirələr aparılıb



İqtisadiyyat naziri Mikayıl Cabbarov və energetika naziri Pərviz Şahbazov Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə üzrə komissarı Oliver Varhelyi ilə görüşüblər.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir M.Cabbarov ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığa böyük önəm verdiyini, aparılan danışıqların xüsusi rolunu vurğulayıb. Qeyd edilib ki, Azərbaycan iqtisadiyyatının genişləndirilməsi və şaxələndirilməsində beynəlxalq təcrübənin tətbiqi baxımından Aİ ilə əməkdaşlıq önəmlidir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır. 2020-ci ildə Azərbaycanın Aİ ölkələri ilə ticarət dövriyyəsi 9,33 milyard ABŞ dolları olmaqla ölkəmizin xarici ticarətində payı 38 faiz təşkil edib. 2012-ci ildən indiyədək Aİ ölkələrinin Azərbaycana yatırdığı investisiya 21,5 milyard dollardan çoxdur.

Nazir hazırda işğaldan azad olunmuş ərazilərimizdə infrastruktur və tikinti layihələrinin həyata keçirilməsinin əsas vəzifələrdən olduğunu, yeni reallıqların investisiya qoyuluşu üçün geniş imkanlar yaratdığını bildirib, Aİ-yə üzv olan ölkələri layihələrdə fəal iştiraka dəvət edib.

Görüşdə energetika naziri P.Şahbazov Aİ ilə enerji tərəfdaşlığı, reallaşdırılan regional əhəmiyyətli layihələr barədə məlumat verib, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu vurğulayıb, "yaşıl enerji" sahəsində əməkdaşlıq imkanlarını qeyd edib. Avropa İttifaqının Qonşuluq və Genişlənmə üzrə komissarı O.Varhelyi Aİ-nin ölkəmizlə bir sıra sahələr üzrə səmərəli əməkdaşlığını diqqətə çatdırıb, tərəfdaşlığın gücləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər işğaldan azad olunmuş ərazilərimizin bərpasında əməkdaşlıq, kiçik və orta biznesin inkişafı, Aİ tərəfindən təklif edilən maliyyə alətləri və investisiyalar üçün prioritet sahələr barədə fikir mübadiləsi aparıblar.

Görüşdə ölkəmizin Belçika Krallığı və Lüksemburq Böyük Hersoqluğundakı səfiri, Avropa İttifaqı yanında nümayəndəliyinin rəhbəri Fuad İsgəndərov və Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas iştirak ediblər.

# Azərbaycandakı diplomatik korpusun və beynəlxalq təşkilatların 100-dən çox nümayəndəsi Şuşa şəhərinə səfər edib


























**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, xarici diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə tanışlıq səfərlərinin təşkili davam etdirilir.**

İyulun 9-da Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun və beynəlxalq təşkilatların ümumilikdə 100-dən çox nümayəndəsinin Şuşa şəhərinə səfəri təşkil olunub.

AZƏRTAC xəbər verir ki, səfərdə Türkiyə, Pakistan, İtaliya, Avstriya, İsveç, Polşa, İsrail, Çin, Yaponiya, Malayziya, Cənubi Koreya, Belarus, Ukrayna, Braziliya, Meksika, Səudiyyə Ərəbistanı, Qətər, Əlcəzair və digər ölkələrin səfirləri, həmçinin BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının, Ümumdünya Səhiyyə Təşkilatının nümayəndələri iştirak ediblər.

Diplomatlar və beynəlxalq təşkilatların təmsilçiləri səfər çərçivəsində Füzuli Beynəlxalq Hava Limanının tikinti işlərinin gedişi və "Füzuli" yarımstansiyası ilə tanış olublar.

Məlumat verilib ki, Prezident İlham Əliyev tərəfindən təməli qoyulmuş hava limanının tikinti işlərinə Azərbaycanın xarici tərəfdaşları, o cümlədən İtaliya və Türkiyə şirkətləri cəlb olunub. Aeroportun uçuş-enmə zolağının tikintisinin sentyabradək, hava limanının inşasının isə ilin sonunadək tamamlanması planlaşdırılır. Ərazisi 250 hektar olan yeni aeroportun uçuş-enmə zolağının uzunluğu 3000 metr, eni isə 60 metr təşkil edəcək.

"Füzuli" yarımstansiyasının fəaliyyəti ilə tanışlıq zamanı bildirilib ki, 110/35/10 kilovoltluq yarımstansiya Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin ən qısa vaxtda elektrik enerjisi ilə təchiz edilməsinə dair tapşırığına uyğun olaraq tikilib. Yeni aeroportun və "Zəfər" yolunun yaxınlığında yerləşən bu yarımstansiya hava limanı da daxil olmaqla, Füzuli şəhəri və ətraf kəndlərdə yaradılacaq bütün infrastrukturu elektrik enerjisi ilə təchiz edəcək.

Xatırladaq ki, "Füzuli" yarımstansiyası Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə bu il iyunun 14-də istifadəyə verilib.

Sonra diplomatik korpusun nümayəndələri, o cümlədən xarici ölkələrin səfirləri, hərbi attaşelər və beynəlxalq təşkilatların təmsilçiləri Şuşa şəhərinə gəliblər. Şuşa ilə tanışlıq qala divarlarının qarşısından başlanıb. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa İşğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Onlar şəhərdəki Saatlı, Aşağı Gövhər ağa və Yuxarı Gövhər ağa məscidlərində olublar. Məlumat verilib ki, 30 illik işğal dövründə dini abidələr, o cümlədən bu məscidlər erməni vandallığına məruz qalıb. Şuşa işğaldan azad olunandan dərhal sonra bu məscidlərdə təmir-bərpa işlərinə başlanılıb.

Türkiyə, Pakistan, Qətər, Liviya və digər müsəlman ölkələrindən olan diplomatlar Yuxarı Gövhər ağa məscidində namaz qılıb, dua ediblər.

Liviyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Əşrəf Adəm Yuxarı Gövhər ağa məscidinə müqəddəs "Qurani-Kərim" hədiyyə edib. Şuşanın mərkəzi meydanında Azərbaycanın mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri ziyarət olunub.

Bildirilib ki, işğal illərində ermənilər həmin heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra heykəllər öz əvvəlki yerinə qaytarılıb.

Daha sonra Pənahəli xanın sarayının qalıqları olan əraziyə, Mehmandarovların malikanə kompleksinə baxış keçirilib, Qazançı kilsəsində aparılan təmir-bərpa işləri ilə tanışlıq olub.

Səfər iştirakçılarına Pənahəli xanın sarayının, Mehmandarovların malikanə kompleksinin tarixi haqqında məlumat verilib, işğal dövründə xan sarayının və malikanə kompleksinin erməni vandallığına məruz qaldığı bildirilib. Qonaqlar erməni vəhşiliyinin canlı şahidi olublar. Hazırda kompleksdə bərpa işləri aparılır.

Sonra Qazançı kilsəsinə gedən qonaqlara işğaldan azad olunan ərazilərimizdə Azərbaycan dövləti tərəfindən həyata keçirilən nəhəng yenidənqurma işləri, o cümlədən Şuşada aparılan bərpa və quruculuq prosesi barədə məlumat verilib. Bildirilib ki, bərpa işləri Şuşanın orijinal memarlıq üslubuna uyğun olaraq həyata keçirilir.

Qeyd edək ki, səfər iştirakçıları tarixi Şuşa Bəyannaməsinin imzalandığı ərazidə və qədim Mərdinli məhəlləsində də olublar.

## *Çinin səfiri:* "Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər"

"Azərbaycan ilə Çin arasında dostluq münasibətləri mövcuddur. Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər".

Bunu AZƏRTAC-a açıqlamasında Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min deyib.

Azərbaycanın çox gözəl və əsrarəngiz ölkə olduğunu vurğulayan səfir deyib ki, Qarabağa, Şuşaya səfərdən çox məmnundur. "Mən çox heyrətləndim. Qısa müddətdə bu qədər nəhəng işlər görülüb. Təəssüratlarım çox zəngindir", - deyə Qo Min qeyd edib.

## *Cahit BAĞÇI:* "Azərbaycan Vətən müharibəsindəki Zəfərini azad olunmuş ərazilərdə quruculuq işləri ilə davam etdirir"

"Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Qarabağa, işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərlər təşkil edilir. Bütün dünya Azərbaycanın Zəfərindən sonra Qarabağda gedən bərpa-quruculuq işlərini öz gözləri ilə görməlidir. Azərbaycan Vətən müharibəsindəki Zəfərini işğaldan azad edilmiş ərazilərdə quruculuq işləri ilə davam etdirir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı iyulun 9-da diplomatik korpus nümayəndələrinin Şuşaya səfəri çərçivəsində "Füzuli" yarımstansiyası ilə tanışlıq zamanı deyib.

Türkiyənin səfiri qeyd edib: "Bu, mənim Qarabağa dördüncü səfərimdir. "Füzuli" yarımstansiyası çox qısa müddətə inşa edilərək təhvil verilib. Füzuli Beynəlxalq Hava Limanında isə bir il tamam olmamış, yəni sentyabr ayında sınaq uçuşları keçiriləcək. Buna nə qədər sevinsək, yenə də azdır".

Cahit Bağçı doğulduğu Çorum şəhərinin Füzuli ilə qardaşlaşmış şəhər olmasından qürur duyduğunu bildirib.

Şuşa Bəyannaməsinin əhəmiyyətindən danışan diplomat bunu iki qardaş ölkə arasında müttəfiqlik sənədi kimi dəyərləndirib. O deyib: "Naxçıvan üçün Qars müqaviləsi necə əhəmiyyət daşıyırsa, Şuşa Bəyannaməsi də Qarabağ üçün bir o qədər əhəmiyyətlidir. Bu sənəd Türkiyənin hər zaman Azərbaycanın yanında olmasının və olacağının təsdiqidir. Şuşa Bəyannaməsində əksini tapan Zəngəzur dəhlizi layihəsi mühüm əhəmiyyət kəsb edir. İnanırıq ki, mühüm geostrateji əhəmiyyətə malik Zəngəzur dəhlizi layihəsi də tezliklə reallaşacaq".

Diplomat bildirib ki, Naxçıvan türk qapısıdır. Zəngəzur dəhlizi ilə Azərbaycan Naxçıvan vasitəsilə Orta Asiyaya, Qərbə açılacaq, kommunikasiya əlaqələrinin qurulması ilə daha da inkişaf edəcək. Məhz bu səbəblərdən Şuşada Türkiyə ilə Azərbaycan arasında imzalanan Bəyannamə çox dəyərli və əhəmiyyətlidir.

## *Klaudio TAFFURİ:* "Əminəm ki, aparılan bərpa-quruculuq işləri sayəsində Qarabağ tezliklə yenidən canlanacaq"

"Bu səfərdən çox təsirləndim, bütün ərazilər məhv edilib. Bu, mənə çox acı hisslər yaşatdı".

Bunu AZƏRTAC-a açıqlamasında İtaliyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Klaudio Taffuri bildirib. Səfir əminliklə qeyd edib ki, Azərbaycan dövlətinin Zəfərdən sonra Qarabağda apardığı bərpa-quruculuq işləri sayəsində tezliklə bölgə yenidən canlanacaq, insanlar öz evlərinə qayıdacaqlar. O zaman hər şey yaxşı olacaq.

"İşğaldan azad edilmiş rayonların bərpası üçün İtaliya ilə Azərbaycan arasında xeyli sayda müqavilə imzalanıb. İtaliya şirkətləri bu bölgədə tikinti-quruculuq işlərini həyata keçirməyə hazırdırlar", - deyə diplomat vurğulayıb.

## *Qətər səfiri:* "Yolboyu şahidi olduğumuz tikinti-quruculuq işlərinin sürəti bizi çox sevindirdi"

"Azərbaycanın tarixi və mədəniyyət paytaxtı Şuşada olmaqdan çox məmnunam. Şuşaya gələrkən yolboyu şahidi olduğumuz tikinti-quruculuq işlərinin sürəti bizi çox sevindirdi".

Bunu AZƏRTAC-a açıqlamasında Qətərin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Feysal Bin Abdullah Hamad Al Hinzab deyib. Səfir əmin olduğunu bildirib ki, Azərbaycan dövlətinin sürətlə apardığı tikinti-quruculuq işlərinin nəticəsində Qarabağ tezliklə cənnətə çevriləcək.

# İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası üzvlərinə ölkəmizdə sosial sahədə aparılan islahatlar barədə məlumat verilib





**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası üzvlərinin görüşü olub.**

Görüşdə palatanın prezidenti Aleks Kaplun Azərbaycanda əmək, məşğulluq, sosial müdafiə sahələrində aparılan genişmiqyaslı sosial islahatlarla bağlı İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası üzvlərinin məlumatlandırılması, bu mövzuda səmərəli fikir mübadilələrinin aparılması baxımından belə bir görüşün əhəmiyyətini diqqətə çatdırıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, S.Babayev Azərbaycanla İsrail arasında dost münasibətlərinə, yüksək siyasi etimada əsaslanan əməkdaşlıq əlaqələrinin daim genişlənməkdə olduğunu vurğulayıb. O, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun ötən il Vətən müharibəsində əldə etdiyi tarixi Zəfər barədə danışarkən torpaqlarımızın Ermənistanın işğalından azad edilməsi üçün aparılan hərbi əməliyyatlar zamanı İsrailin dost mövqeyindən çıxış edərək ölkəmizə göstərdiyi siyasi və humanitar dəstəyi vurğulayıb və buna görə minnətdarlığını bildirib. O, Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində İsrail şirkətlərinin uğurlu fəaliyyətini diqqətə çatdırıb. İsrail şirkətlərinin işğaldan azad olunmuş ərazilərimizin bərpasında da iştiraka maraq göstərmələrinin məmnunluq doğurduğunu ifadə edib.

Azərbaycanla İsrail arasında dostluq və yüksək siyasi etimadın formalaşmasında ölkəmizdə yaşayan yəhudi icmasının xüsusi rolunu qeyd edən nazir Azərbaycanda sahibkarlığın inkişafına göstərilən ardıcıl və sistemli dövlət dəstəyini diqqətə çatdırıb. S.Babayev pandemiya dövründə ölkəmizdə məşğulluğa və sosial rifaha dəstək tədbirləri, iş yerlərinin, əməkhaqlarının qorunması, məşğulluq imkanlarının artırılması işləri, ildən-ilə genişlənən sosial müdafiə və aktiv məşğulluq proqramları barədə məlumat verib. O, şəhid ailəsi üzvləri və qazilərin məşğulluğuna dəstək məqsədilə artıq bir aydır ki, davam edən "Məşğulluq marafonu"nu qeyd edərək marafona qoşulan işəgötürənlərin sayının artmaqda olduğunu bildirib.

Nazir qeyri-formal məşğulluğun qarşısının alınması tədbirlərindən, formal məşğulluğa keçidi stimullaşdırmaq üçün tətbiq olunan təsirli mexanizmlərdən bəhs edib. Əmək müqavilələrinin sayında artım dinamikasını, sahibkarlarla sosial dialoqun inkişaf etdirildiyini diqqətə çatdırıb, DOST konsepsiyası, sosial sahədə proaktiv xidmətlər barədə məlumat verib.

S.Babayev həmçinin İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası üzvlərinin suallarını cavablandırıb.

Görüşdə İsrail-Azərbaycan Ticarət və Sənaye Palatası ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşlığı çərçivəsində şəhid övladlarının və qazilərin məşğulluq imkanlarının artırılması məqsədilə onların informasiya texnologiyaları üzrə peşə hazırlığı kurslarının təşkili və tərəfdaş şirkətlərdə işlə təmin olunması layihəsinin təqdimatı olub.

# Xarici İşlər Nazirliyinin rəhbər heyəti Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib





**Xarici İşlər Nazirliyinin rəhbər heyəti 9 İyul - Diplomatik Xidmət Orqanları Əməkdaşlarının Peşə Bayramı Günü münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, XİN rəhbərliyi əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib və məzarı önünə əklil qoyublar.

Həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

# Azərbaycan-Rusiya birgə demarkasiya Komissiyasının doqquzuncu iclası olub

İyulun 6-9-da Bakı şəhərində xarici işlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfovun və Azərbaycan-Rusiya birgə demarkasiya Komissiyasında Rusiya nümayəndə heyətinin rəhbəri A.A.Bilyalitdinovun rəhbərliyi ilə Azərbaycan-Rusiya birgə demarkasiya Komissiyasının doqquzuncu iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda demarkasiya prosesinin davam etdirilməsi ilə bağlı məsələlər müzakirə edilib, çöl demarkasiya işlərinin aparılması və təşkili üçün lazım olan sənədlər təsdiqlənib. Sərhəd nişanlarının quraşdırılması Azərbaycan-Rusiya birdə demarkasiya Komissiyasının 2021-ci il üçün iş planına müvafiq olaraq davam etdiriləcək.

Demarkasiya işlərinin aparılması zamanı hər iki dövlət tərəfindən işlərin konstruktiv və ardıcıl həyata keçirilməsi qeyd olunub. Görüş mehriban qonşuluq və konstruktiv dialoq ruhunda keçib.

Birgə komissiyanın növbəti iclası Rusiya Federasiyası ərazisində keçiriləcək. Görüşün keçirilmə tarixi diplomatik kanallar vasitəsilə razılaşdırılacaq.

# ADA Məktəbində "Məzun günü" keçirilib

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, məktəbdə 2020-2021-ci tədris ili üzrə təhsil alan 190 şagird məzun adını qazanıb. Pandemiya ilə əlaqədar tədbirdə yalnız məktəbin pedaqoji kollektivi və şagirdlər iştirak ediblər.





Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra ərazi bütövlüyümüz uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında məzunları və onların müəllimlərini təbrik edib.

"ADA Məktəbinin əsas məqsədi ali təhsil həyatına daha hazırlıqlı şagird-tələbələr yetişdirməkdir. Bu baxımdan ADA şagirdləri gözləntiləri, onlara olan etimad və inamı doğrultdu", - deyə rektor H.Paşayev bildirib.

ADA Universitetinin akademik işlər üzrə prorektoru Vəfa Kazdal deyib: "ADA Məktəbinin unikallığı ondadır ki, burada etibara, əməkdaşlığa, qarşılıqlı hörmət və dəyərə əsaslanan təlim-tədris sistemi mövcuddur. Belə bir sağlam şagird-müəllim münasibəti və məktəb mühiti akademik inkişaf və şəxsiyyət formalaşdırmaq üçün geniş imkan yaradır".

ADA Məktəbinin şagirdi Leyla Sarac məzunlar adından çıxış edərək ADA ailəsinə minnətdarlığını bildirib.

Tədbirdə şagirdlər fərqli janrlarda musiqilər səsləndirib, əyləncəli rəqslərlə çıxış ediblər. "Məzun günü"nün sonunda sülh rəmzi olan göyərçinlər səmaya buraxılıb. Tədbir mantiya geyinmiş məzunların ənənəvi "papaq atma" mərasimi ilə yekunlaşıb.

# İstanbulda keçirilən XXIV Avrasiya İqtisadi Zirvə Toplantısı başa çatıb

Azərbaycanın dəstəyi və "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə İstanbulda keçirilən XXIV Avrasiya İqtisadi Zirvə Toplantısının iyulun 9-da təşkil olunan sonuncu paneli "Qlobal istiləşmə və iqlim dəyişikliyi" mövzusuna həsr edilib.




AZƏRTAC xəbər verir ki, müasir dövrün zəkalı insanları platformasında Türkiyə Respublikasının sabiq Prezidenti Abdullah Gül, Albaniyanın sabiq Prezidenti Buyar Nişani, Bosniya və Herseqovina Federasiyasının Prezidenti Marinko Cavara, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sabiq üzvü Mladen İvaniç, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov, Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç, Xorvatiyanın sabiq prezidentləri İvo Yosipoviç və Stefan Mesiç, Şimali Makedoniyanın sabiq Prezidenti George İvanov, Çexiyanın sabiq Prezidenti Vatslav Klaus, Rumıniyanın sabiq Prezidenti Emil Konstantinesku, Moldovanın sabiq Prezidenti Petru Luçinskinin çıxışları dinlənilib.

İyulun 9-da üç panelin keçirilməsi ilə XXIV Avrasiya İqtisadi Zirvə Toplantısı başa çatıb.

Qeyd edək ki, iki gün davam edən XXIV Avrasiya İqtisadi Zirvə Toplantısında Azərbaycanla bağlı, eləcə də 44 günlük Vətən müharibəsi nəticəsində qazanılmış rəşadətli Qələbədən sonra regionda yaranmış yeni münasibətlər sferasına, əməkdaşlığa dair strateji imkanlar barədə məsələlər müzakirə edilib.

Qırx bir ölkəni təmsil edən çıxışçıların qatıldığı müzakirələrdə Avropa-Qafqaz-Asiya və "Şimal-Cənub" nəqliyyat dəhlizinin strateji coğrafi əhəmiyyəti əsasında Prezident İlham Əliyev tərəfindən iyulun 1-də təməli qoyulan Ələt Azad İqtisadi Zonasının əhəmiyyəti, eləcə də Zəngəzur dəhlizinin açılması prosesi, işğalçı Ermənistanın bölgədə törətdiyi ekoloji terror və hazırda davam edən bu bəşəri cinayəti regionda yaratdığı genişmiqyaslı təhlükələrdən bəhs olunub.

Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması üçün hər zaman geniş tribuna statusunda olan Avrasiya İqtisadi Zirvə Toplantısı XXIV görüşü ilə də bu istiqamətdə faydalı və səmərəli olub.

# Avrasiya İqtisadi Zirvə Toplantısında Ermənistanın törətdiyi ekoloji terrordan danışılıb

Azərbaycanın dəstəyi və "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin təşkilatçılığı ilə İstanbulda keçirilən XXIV Avrasiya İqtisadi Zirvə Toplantısı çərçivəsində təşkil olunan növbəti panel iclası yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizəyə həsr olunub.



AZƏRTAC xəbər verir ki, "Ortaq gücümüz: kəskin pandemiyada təhlükəsiz limana çatmaq" və "Ortaq zəifliyimiz: qlobal istiləşmə COVID-19 infeksiyasından daha böyük təhdiddir" mövzularında keçirilmiş paneldə dəyərlər və onun qorunmasının əhəmiyyəti müzakirə olunub.

Çıxışında dəyərlərə və onların insan cəmiyyətində mövcud olan problemlərin həllinə təsirinə geniş yer ayıran Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, Azərbaycan xalqı yumruq kimi birləşərək işğal altındakı torpaqlarını Ermənistandan geri aldı. Təcavüzkar Ermənistan 30 illik işğal dövründə zəbt edilmiş torpaqlarımızda ekoloji terror və tarixi-mədəni irsimizə qarşı əsl soyqırım törədib. Təəssüf ki, Ermənistan minalanmış ərazilərin xəritələrini Azərbaycana tam şəkildə verməkdən imtina etməklə terrorçu siyasətini davam etdirir. Buna baxmayaraq, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan dövləti işğaldan azad olunmuş əraziləri gülüstana çevirir, dağıdılmış yerlərdə abadlıq, quruculuq işləri aparılır, "ağıllı" kəndlər, qəsəbələr və şəhərlər salınır.

Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamını xatırladan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Azərbaycana və mədəniyyət paytaxtımız Şuşaya tarixi səfəri, imzalanan Şuşa Bəyannaməsi iki qardaş ölkənin münasibətlərində yeni bir inkişaf mərhələsi yaradıb.

Qarşıdan gələn müqəddəs Qurban bayramı münasibəti ilə təbriklərini çatdıran QMİ sədri Allahşükür Paşazadə əminliklə bildirib ki, əvvəllər olduğu kimi, budəfəki Zirvə toplantısında müzakirə edilən məsələlər də faydalı və səmərəli olacaq.

Panel iclasında Çin xalqının Xarici Ölkələrlə Dostluq Dərnəyinin (CPAFFC) sədr müavini Lin Yı, Türkiyə Süryaniləri Katolik Patriarxının vəkili Orhan Çanlı və digərləri çıxış edərək mövzuların əhəmiyyətinə toxunub, yaranan problemlərdən çıxış yolları ilə bağlı fikirlərini bölüşüblər.

Zirvə toplantısı işini davam etdirir.

# Çağırışçı gənclər müddətli həqiqi hərbi xidmətə yola salınıblar

"Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Prezident İlham Əliyevin Sərəncamına müvafiq olaraq ölkəmizin rayon və şəhərlərində çağırışçı gənclərin təntənəli yolasalma mərasimləri keçirilir.




Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə xidmətin yerli strukturlarının şəxsi heyəti, rayonların icra hakimiyyətlərinin, hüquq mühafizə orqanlarının əməkdaşları, müharibə veteranları, valideynlər, ictimaiyyətin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirlər.

Paytaxtın Nizami rayonunda, eləcə də Qəbələ rayonunda keçirilən tədbirlərdə iştirakçılar və çağırışçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini anıblar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirlərdə çıxış edənlər hərbi xidmətə yola düşmələri münasibətilə çağırışçılara təbriklərini çatdırıb, onlara şərəflə xidmət etmələrini, nizam-intizamlı olmalarını, Vətənin keşiyində ayıq-sayıq dayanmalarını, komandirlərin tapşırıqlarını sözsüz yerinə yetirmələrini tövsiyə ediblər.

Qeyd olunub ki, hazırda hərbi xidmətə yola salınan gənclər əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan orduda xidmət edəcəklər. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində hazırda regionun ən güclü və qüdrətli ordusuna çevrilən Silahlı Qüvvələrimizin Vətən müharibəsində əsl qəhrəmanlıq, yüksək peşəkarlıq nümayiş etdirərək işğal altında olan torpaqlarımızı azad etdiyi vurğulanıb.

Çağırışçılar tədbir iştirakçılarını əmin ediblər ki, hərbi xidmətdə qalib Azərbaycan əsgəri adını şərəflə daşıyacaqlar.

Sonda gənclər Azərbaycan bayrağının altından keçərək müddətli həqiqi hərbi xidmətə yola düşüblər.

# Müdafiə Nazirliyi rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında paylaşılan məlumatların statistikasını açıqlayıb

Bu il yanvarın 1-dən iyunun 30-dək Müdafiə Nazirliyinin rəsmi internet səhifəsi və sosial şəbəkə hesablarında paylaşılan məlumatların statistikası, eləcə də mətbuat sahəsində görülən işlər barədə yarımillik hesabat hazırlanıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyinin www.mod.gov.az rəsmi internet səhifəsinin məzmunu və tərtibatı çevik informasiya yayımını həyata keçirmək üçün üç (Azərbaycan, ingilis və rus) dildə fəaliyyətini davam etdirib.

Hesabat dövründə Müdafiə Nazirliyi tərəfindən ümumilikdə 723 məlumat hazırlanıb. Bundan 565 məlumat rus, 550 məlumat isə ingilis dilinə tərcümə edilərək nazirliyin rəsmi internet səhifəsində, o cümlədən feysbuk, tvitter, teleqram, instaqram sosial şəbəkələrində və yutub kanalında yerləşdirilib.

Müdafiə Nazirliyinin yutub kanalında yerləşdirilən videolara yazılmış mətnlərin 372-si rus, 369-u ingilis dillərinə tərcümə edilib.

Hərbi-vətənpərvərlik və digər mövzularda keçirilən tədbirlərlə bağlı 3418 foto və 429 videomaterial rəsmi internet səhifəsinə yerləşdirilib.

Kütləvi informasiya vasitələrindən (KİV) daxil olan 60 sorğu cavablandırılıb, bundan 15-i rus, 7-si isə ingilis dilinə tərcümə edilib. Hərbi hissələrdə çəkilişlər aparılması üçün televiziya kanallarının nümayəndələrinə 95 icazə məktubu verilib. Müdafiə Nazirliyi tərəfindən təşkil olunan tədbirlərin işıqlandırılması məqsədilə informasiya agentliklərinin nümayəndələrinin 27 tədbirdə iştirakı təmin edilib.

Hesabat dövründə geniş ictimaiyyətin məlumatlandırılması və KİV-lə işin təkmilləşdirilməsi məqsədilə müxtəlif səpkili 14 media-tur keçirilib.

İşğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarının Mühəndis Qoşunları tərəfindən minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri media nümayəndələrinə praktiki nümayiş etdirilib. Jurnalistlər həmçinin Azərbaycan Ordusunun silahlanmasına yeni qəbul edilən müasir mühəndis texnikasının fəaliyyətini səhra şəraitində izləyiblər.

Media-tur çərçivəsində jurnalistlər Ağdam rayonunda yeni quraşdırılan modul tipli hərbi hissələrdə yaradılan məişət şəraiti ilə də tanış olublar. Bundan əlavə, bu rayonun ərazisində yerləşən Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin açılış mərasimində də KİV nümayəndələri iştirak ediblər.

Xüsusi təyinatlı təhsil müəssisələrində tədris prosesinin, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı prosesinin və Cəmşid Naxçıvanski adına Hərbi Liseyin növbəti buraxılış mərasiminin mediada işıqlandırılması təmin olunub.

Hərbi Dəniz Qüvvələrində keçirilən taktiki təlimlər barədə mediada operativ xəbərlərin verilməsi məqsədilə jurnalistlərin təlimdə iştirakı üçün şərait yaradılıb. Hesabat dövründə yerli və xarici KİV-in, həmçinin feysbuk, tvitter, teleqram, instaqram sosial şəbəkələri və yutub kanallarının monitorinqi zamanı maraq doğuran 8089 məlumat təhlil edilib. Onlardan 3533-ü Azərbaycan, 2663-ü Ermənistan, 255-i Rusiya, 33-ü digər xarici ölkələrin saytlarına, həmçinin 1605 məlumat isə sosial şəbəkələrə aiddir.

Qeyd edilən dövrdə aparılan xarici KİV-in monitorinqi zamanı maraq doğuran 11 məqalə ingilis dilindən tərcümə edilərək yerli KİV-də dərc olunması üçün hazırlanıb, həmin məqalələrdən 4-ü dərc olunub. Əlavə olaraq xarici ekspertlərdən alınmış üç müsahibə rus dilində hazırlanaraq yerli KİV-də dərc olunub.

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 23 iyun tarixli 950 nömrəli Fərmanının tələblərinə uyğun olaraq Müdafiə Nazirliyinin pressmd@mod.gov.az və apellyasiya@mod.gov.az elektron poçt ünvanlarına 2986 müraciət daxil olub ki, bu müraciətlər də müvafiq qaydada istiqamətlər üzrə yönəldilib və cavablandırılıb.

Hesabat dövründə nazirliyin feysbuk səhifəsində 1087, instaqram səhifəsində 1087, teleqram səhifəsində 1082 məlumat paylaşılıb, tvitter səhifəsində isə 1087 tvit yerləşdirilib.

Bu ilin altı ayında Müdafiə Nazirliyinin yutub kanalına ümumilikdə 410 video yüklənib.






# Gənclik







● Qarabağ Azərbaycandır!



## "Dəmir yumruğ"un müsəlləh əsgərləri

Əvvəli 1-ci səh.

1996-cı il fevralın əvvəllərində Azərbaycan gənclərinin ilk forumu keçirildi. Bu forum gəncliyin inkişafı məqsədilə həyata keçirilən dövlət siyasətinin təməlinə çevrildi. 1997-ci ildə imzalanmış fərmanla hər il 2 fevral tarixinin ölkəmizdə "Gənclər günü" kimi qeyd edilməsi ilə bağlı dəyərli bir ənənənin əsası qoyuldu. Dövlət gənclər siyasətinin vahid, koordinasiya edilərək mərkəzləşmiş qaydada icrası üçün Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər siyasəti ilə bağlı mühüm qərarlar verildi. "Gənclər siyasəti haqqında" qanun qəbul olundu.

Ümummilli Lider gənclərlə keçirdiyi mütəmadi görüşlərlə onlara nə qədər böyük dəyər verdiyini, gəncləri maraqlandıran məsələləri daim diqqətdə saxladığını, bu nəslin gələcəklə bağlı ideyalarının, hədəflərinin mühümlüyünü göstərirdi. Onların mənəvi və fiziki sağlamlığının, vətənpərvərlik ruhunda tərbiyəsinin, milli dəyərlərimizə bağlılığının nə qədər həyati vacib məsələ olduğunu nümayiş etdirir, öz yanaşmaları ilə gənclərə şəxsi nümunə olurdu. Bu kurs zamanın çağırışlarına uyğun olaraq Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən böyük əzmlə davam və inkişaf etdirilir. Azərbaycan Prezidenti ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə apardığı fəaliyyətdə gənclərə böyük inam bəsləyir. Gəncliyin inkişafı üçün lazımi şəraitin yaradılması istiqamətində məqsədyönlü addımlar atır.

### Müqəddəs amal

Azərbaycan bayrağının daim yüksəklərdə dalğalanması, himnimizin əlamətdar anlar münasibətilə səsləndirilməsi dövlət rəhbərimizin gənclər üçün formalaşdırdığı ali bir dəyərdir. Ona görə də Vətən müharibəsi günlərində, ondan əvvəl ordumuzun 2016-cı ildəki Aprel Zəfərində də Azərbaycan gəncliyi torpaqlarımızı düşməndən azad edib bayrağımızı yüksəltməyi, qalibiyyət duyğusunun himnimizlə bütün dünyaya çatdırmasını özünə ən müqəddəs amal bilirdi. Azərbaycan Prezidentinin formalaşdırdığı dövlətçilik strategiyası hər bir Azərbaycan gəncini dövlətin əsas hədəfinə - ərazi bütövlüyümüzün bərpa olunmasına istiqamətləndirmişdi. Torpaqlarımızın azadlığını ümummilli hədəfə çevirmişdi.

Prezident İlham Əliyev bir çox çıxışlarında nəsillərarası münasibətə, qırılmaz bağlılığa toxunur, təcrübə ilə dinamizmin, çevikliyin vəhdətinin Azərbaycanı öz hədəflərinə daha da yaxınlaşacağını bəyan edirdi. Vətən müharibəsindəki qələbəmiz bunun tarixi sübutu, xalqın liderinin uzaqgörənliyinin təntənəsi oldu.

Azərbaycan gəncliyi nə qədər vətənpərvər, cəsarətli və güclü olduğunu göstərdi. Ona bu gücü verən, özünəinam hissini təlqin edən əsas amilin isə ailə, vətən, torpaq sevgisi olduğu göründü. Ordumuzun nümayiş etdirdiyi misilsiz qalibiyyətinin də sirri elə bu vətən sevgisindədir. Bu sevgi bizi Qələbəyə qovuşdurdu. Tarixi Zəfərimizin əsas amilinə çevrildi.

Vətən müharibəsi başlayanda minlərlə gəncin Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə rayon şöbələrinə müraciət etməsi, həmin şöbələrin binaları önündə yaranmış qələbəliklər Azərbaycana sevginin nümayişi idi. Gənclər cəbhəyə göndərilmələrində israr edirdilər. Döyüşə toy-bayrama gedirmişlər kimi gülə-gülə sevinc içində yollanırdılar. Bütün Azərbaycan gəncləri çiyinlərinə saldıqları, uca yerlərdən asdıqları üçrəngli bayrağımızın rənginə bürünmüşdü. Bunlar vətənpərvərlik tərbiyəsinin hesabatı idi.

Vətən müharibəsinə kimi çağırışçılar hərbi xidmətə Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad edəcək döyüşlərdə iştirak etmək niyyəti ilə başlayırdılar. Müharibənin ilk gününə kimi səngərlərdə, mövqelərdə döyüş növbətçiliyi aparan əsgərlər də xidmətlərinə bu amalla davam edirdilər. Hərbi xidmətdən tərxis olunanlar döyüşlər başlayanda əsgərlərin sırasında olmaqda israrlıydılar. Azərbaycan gəncliyi döyüş əzmi ilə yaşayır, bu əzmlə xidmət edirdi. Azərbaycan gəncliyi düşüncələrində daim döyüş əmri gözləyirdi. Gəncliyin bu gözləntisi cəmiyyətin sabaha baxışı ilə eyniyyət təşkil edirdi. Hər kəs fərqində idi ki, xalqımız tarixi haqlarını gec-tez bərpa etməlidir. Şəhidlərimizin qisasını döyüş meydanlarında almalıdır. Düşməni torpaqlarımızdan qovmalıdır. Bu münaqişəyə birdəfəlik son qoyulmalıdır. İşğalçı Ermənistanın və illərdir ki, müxtəlif üsullarla məsələni uzadan, Azərbaycanın sözünü, haqlarını, ədalət prinsiplərini görməzdən gələn erməni havadarlarının cavabı nəhayət ki, sərt şəkildə verilməlidir. Azərbaycan xalqı, gəncliyimiz bu cavabı "Dəmir yumruğ"un gücü ilə verdi. Cəmiyyətin gələcəyi olan gənclik regionun aydın gələcəyinə də yol açdı. Şanlı qələbəmiz də gələcəkdə hər kəsin bu torpaqlarda sülh içində yaşaması, inkişafa, insanın rifahına fayda verməsi üçün yeni bir reallıq yaratdı. Regionun təhlükəsizliyi üçün ən böyük təhdid mənbələrindən olan Ermənistan ordusunu məhv etdi. İllərdən bəridir insanlıq əleyhinə ziyanlı düşüncələrlə beyni zəhərlənmiş erməni xalqına hansı fəlakətli günlərə gəlib çıxdığını, özünü nə günə, nə aqibətə saldığını göstərdi.

### İnam

Azərbaycan gəncliyi döyüş səngərlərində düşmənin dizini yerə çökdürdüyü kimi, informasiya savaşında da böyük üstünlük qazandı. Əslində, bu Vətən müharibəsinə qədər də gənclərimizin apardığı sistemli işin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün həyata keçirilən davamlı tədbirlərin yaratdığı üstünlükdür. Azərbaycan gəncliyi bununla ermənilərin illərdən bəri dünyaya yaydıqları yalanları ifşa edirdi. Burada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə son illərdə dünyanın əksər ölkələrində keçirilən "Xocalıya ədalət!" kampaniyasının rolunu xüsusi qeyd etmək istərdik. Azərbaycan naminə görülən bütün işlər ölkəmizdə nə qədər savadlı, müasir bacarıqlara, yüksək intellektual imkanlara, xarici dil biliklərinə malik gənclərin yetişdiyini göstərir.

Bizim əsas silahımız, gücümüz də gənclərimizin bu bilik və bacarıqlara, müasir dünyamızın çağırışlarına uyğunlaşdırmaları, özlərini yetişdirmələridir. Çünki tarixboyu hər zaman ordunun gücü ilə qazanılmış qələbələri biliyin gücü möhkəmləndirir və əbədi edir. Azərbaycan Prezidentinin də, cəmiyyətimizin də bu gün gənclərlə bağlı ən böyük ümidi məhz budur.

Bütün müharibələr həm də tarixdir, burada iştirak etmiş döyüşçülərin xatirələridir. Qələbə ilə başa çatmış müharibə xalqın qürur hekayəsidir. Vətən müharibəsində iştirak etmiş gənclərimiz zaman keçdikcə yaşa dolacaq, ömrün ixtiyar vədələrinə çatacaqlar. Onların xatirələri isə heç zaman köhnəlməyəcək, Vətən müharibəsi iştirakçıları döyüş təəssüratlarını zaman-zaman özlərindən sonrakı nəsillərlə bölüşəcək, Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunu daha da yüksəldəcəklər. Vətən müharibəsindəki qələbəmiz həm də gəncliyin qələbəsidir. Bu, gələcəyin keçmiş üzərindəki qələbəsidir.

Azərbaycan gəncliyi dövlət rəhbərimizin onlara xitabən vurğuladığı "Gənclər, mən sizə inanıram, güvənirəm" fikrindən daim güc alacaq və Vətən tarixinin yeni şanlı səhifələrini yaradacaqlar.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

● Gənc kadrlarımız

## Vətəni xaricdə ləyaqətlə təmsil etmək şərəfi

**Azərbaycan gəncliyinin inkişafı göz önündədir. Bu inkişafı rəngarəng edən ən mühüm amillərdən biri də təhsildir. Əgər bir dövlətin gəncliyi təhsilə önəm vermirsə, o cəmiyyət inkişafdan məhrum olur. Dövlət başçısının müdrik siyasətinin nəticəsidir ki, Azərbaycan bu təhlükədən uzaqdır. Təsadüfi deyil ki, Azərbaycanda xarici ölkələrdə təhsil almaq üçün yüksək səviyyədə şərait yaradılıb. Bu isə gənc yaşlarından dərin biliklərə, dünyagörüşünə malik kadrların yetişməsi deməkdir. Belə gələcək perspektivli kadrların daha çox toplaşdığı ölkələrdən biri isə Rusiyadır.**



Haqqında yazmaq istədiyim də Rusiyanın şimali-şərqində yerləşən Murmansk vilayətində orta və ali təhsilini başa vurub ölkəmizi layiqincə təmsil edən gənc zabit -leytenant Xəzər Firudin oğlu Mirzəyevdir. 1998-ci ildə Murmansk şəhərində dünyaya göz açıb. 2016-cı ildə həmin şəhərdə 4 nömrəli akademik liseyi əla qiymətlərlə bitirib və yüksək balla Sankt-Peterburqdakı Hərbi Akademiyaya qəbul olunub. Akademiyanı fərqlənmə diplomu və "Qızıl medal"la bitirib. Hərbi xidmətə Rusiyanın Xabarovsk vilayətində hərbi hissə komandirinin müavini kimi başlayıb. Başqa ölkədə doğulub böyüməsinə baxmayaraq, Xəzərin kicik yaşlarından damarlarından axan qan onu doğma vətəni Azərbaycanın təbliğatını gücləndirmək, ölkəmiz haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq naminə apardığı işlər təqdirəlayiqdir.

44 günlük Vətən müharibəsi zamanı zəfər uğrunda haqq savaşında iştirak edəcəyi günü səbirsizliklə gözləyən Xəzər Ali Baş Komandan İlham Əliyevin hər çıxışını - qələbə sevincini böyük coşqu ilə qarşılayır və bundan qürur duyurdu.

Gənc zabit bu gün daha çox populyar olan Yunan-Roma güləşi üzrə cempiondur. Daha bir qürurverici məqam da odur ki, həmvətənimiz universiteti "Qızıl medal" və fərqlənmə diplomu ilə bitirdiyi üçün bir qrup gənc zabitin içərisində Moskvada Rusiya Prezidenti Vladimir Putinlə görüşü gözlənilirdi. Təəssüf ki, məlum pandemiya ilə əlaqədar Rusiyanın paytaxtında bu qaydalar sərtləşdiyinə görə həmin görüş müvəqqəti olaraq təxirə düşmüşdü. Həyat hekayəsi doğma Vətənindən başlayan zabitimizin uğurlu addımlarının səsi uzaqlardan eşidilməkdədir.

Bu gün gənclərimiz artıq dünyanın müxtəlif dövlətlərində təhsil almaqda, xalqımızı və ölkəmizi layiqincə təmsil etməkdədirlər. Harada yaşamağından asılı olmayaraq, doğma vətənini, dilini, milli dəyər və adətlərini unutmayan gənc soydaşlarımız layiqli övlad olmaq nümunəsini göstərməkdədirlər.

Xarici ölkələrdə müxtəlif sahələr üzrə təhsil alan gənclərimizin sonda Vətənə dönüşü ölkəmiz üçün böyük kadr potensialı deməkdir. Öz vətəndaşlıq missiyasını yerinə yetirmək amalı ilə yaşayan Xəzər Mirzəyevə böyük uğurlar diləyirik.

***Aygül BAĞIROVA,***
***Bakı şəhəri, YAP Gənclər Birliyinin fəalı***

● Tarix yazan oğullar

## Quruyub, ay ana, gözümün yaşı…

### Gözləri önündə şəhid olan anasının qisasını alan qazimiz




**"Qarabağı ana qucağında tərk edən körpələr böyüyərək 28 ildən sonra torpaqlarımızı düşməndən azad etdilər". Bu ifadəni tez-tez eşidirik. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsinin əksər iştirakçıları ötən əsrin 90-cı illərində doğulan uşaqlar idi. Belə uşaqlardan biri də hazırda Gəncə şəhərindəki 2 nömrəli poliklinikada uşaq həkimi işləyən Vüsal Allahverdi oğlu Kazımovdur.**

O, 1990-cı ildə Kəlbəcər rayonunun Başlıbel kəndində anadan olub. Üç yaşı olanda doğma yurdu Kəlbəcər düşmən işğalına məruz qalıb. Ailənin ağsaqqalı, 93 yaşlı Ələsgər baba oğlu Allahverdiyə uşaqları da götürüb kəndi tərk etməyi məsləhət gördü. Allahverdi isə atası Ələsgər kişinin, qardaşı Sönməz Ələkbərin ailə üzvlərinin birlikdə yola çıxmalarını təkid edirdi. Axşamdan belə qərara gəlmişdilər ki, Allahverdi öz uşaqlarını götürüb qonşularla birlikdə getsin. Ələkbər isə, hələlik, atası və uşaqları ilə gözləsin. Vəziyyət gərginləşərsə, onlar da Murovdağ yolu ilə Gəncəyə gələrlər.

1993-cü il aprelin 2-də Allahverdi və həyat yoldaşı Naibə üç yaşlı oğulları Vüsalla onun səkkiz aylıq bacısı Fərqanəni qucaqlarına alaraq, piyada çətin və ağır bir səfərə çıxırlar. Allahverdinin əmisi oğlu Məhəmməd Tağıyev və başqaları onlarla yol yoldaşları idilər. Başlıbeldən Kəlbəcərə gedən dağ yolunda qarlı Ağcaqız yaylağından piyada getmək yolçuları əldən salırdı.

Kəlbəcər şəhərini keçib Tərtər çayının kənarı ilə üzü Murovdağa tərəf addım-addım irəlisələr də, qarşıda onları nələr gözlədiyini bilmirdilər. Nadirxanlı kəndinə çatanda qabaqlarına üzü Kəlbəcərə tərəf gedən bir tank çıxır. Aralarında 20 metr məsafə olanda tank dayanır. Onun üstündə hərbi geyimli bir neçə nəfər görünür. 35 km-dən çox yolu piyada gəlib əldən düşmüş dəstə dayanır. Adamların hamısından yaşlı olan Məhəmməd "Deyəsən, ermənilərdir", - deyir.

Bu zaman tankın üstündəki hərbçilərdən biri azərbaycanca "Qorxmayın, gəlin!" - deyir. Onun danışığından dərhal başa düşürlər ki, bunlar ermənilərdir. Məhəmməd ətrafa göz gəzdirib yalnız sol tərəfə sıldırımlı dağlara qaçmaqla can qurtarmağın mümkün olduğunu düşünür. Pıçıltı ilə dəstədəkilərə deyir: "Hərəniz uşaqlarınızın birini götürüb sol tərəfə qaçın. O təpəni aşa bilsək, canımızı qurtara bilərik".

Dəstədə uşaq çox idi. Hərə bir uşaq götürüb soldakı sıldırım qayalara dırmaşmağa başladı. Tankın üstündəki hərbçi "Qayıdın, qayıdın!" - deyə bir neçə dəfə bağırsa da, ona qulaq asan olmur. Bu zaman ermənilər avtomatla atəş açmağa başlayırlar. Kolluq əraziyə çataçatda arxadan atılan güllələrdən biri Allahverdinin həyat yoldaşı, iki uşaq anası Naibə Kazımovaya dəyir və o, ağır yaralanır. Amma dəstə təpəni aşmağı bacarır. Yara isti olduğundan, Naibə də təpəni özü aşır. Ancaq daha yeriyə bilmir. Ona görə də üzünü Allahverdiyə tutub deyir: "Mən gedə bilməyəcəyəm. Uşaqları da götür qaç. Ermənilər buraya çıxa bilməzlər. Uşaqları o tayda görünən kənddə qoyub qayıdarsan". Başqa çarə yox idi. Naibəni bir kolun dibində uzadıb yola düşürlər. Murovdağın ətəyindəki Yanşaq kəndinə çatanda Allahverdi uşaqları əmisi oğlu Məhəmmədə tapşırıb, geri qayıdır. Yolda bizim hərbçilər onun qabağını kəsir, "getmək olmaz, ermənilər Kəlbəcəri işğal ediblər" - deyirlər.

Allahverdi kişi nə qədər yalvarsa da, onu bizimkilər irəli getməyə qoymurlar. Beləliklə də Allahverdinin qardaşı Ələkbər, atası Ələsgər kişi, ailə üzvləri, altmış nəfər Başlıbel kənd sakini mühasirədə qalır, həyat yoldaşı Naibə Alzaman qızı Kazımova isə şəhid olur...

Vüsal böyüyəndə yolda başlarına gələn faciədən ətraflı xəbərdar olur. Anasının ermənilər tərəfindən öldürüldüyünü bilir. Bundan sonra qəlbində işğalçılara qarşı nifrət hissi daha da böyüyür.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda hərbi komissarlığa ilk müraciət edənlərdən biri də Vüsal olur. "Sən uşaq həkimi işləyirsən, burada daha çox xeyir verə bilərsən", - deyib onu cəbhəyə göndərmək istəmirdilər. Bu səbəbdən də Vüsal Müdafiə Nazirliyinə müraciət edir. Bir gün sonra isə ön cəbhəyə yola düşür...

Laçın rayonunda xidmət edərkən qələbə sorağını eşidəndə bütün əsgərlərimiz kimi, Vüsalın da sevincinin hədd-hüdudu olmur. Torpaqlarımızın düşmən tapdağı altındakı otuz illik əsirliyinə son qoyulmuş, şəhidlərimizin, o cümlədən Kəlbəcər rayonunun Şahkərəm kəndində doğulmuş, qonşu Başlıbelə gəlin köçmüş, böyük bir elin xətir-hörmətini qazanmış anası Naibə Kazımovanın da qisası alınır.

Onun qəlbində özünə iyirmi yeddi il yeddi ayda ağır yük kimi yer eləyən bir dərd artıq götürülmüşdü. Öz-özünə "Şükür Allaha! Arzum ürəyimdə qalmadı, anamın qisasını aldım", - deyir.

Vüsal Kazımov döyüşlərdə fəal iştirak etdiyi üçün Azərbaycan Prezidentinin sərəncamına əsasən, "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Vüsal artıq ordudan tərxis olunmuş, Gəncədəki sevimli peşəsini davam etdirməklə, doğma Kəlbəcərə dönəcəyi günü səbirsizliklə gözləyir.

***Oqtay SALAHLI,***
***Kəlbəcərdə çıxan "Yenilik" qəzetinin əməkdaşı***

● Dostluq, qardaşlıq, qarşılıqlı etimad

## Azərbaycanla Türkiyə hər zaman bir-birinin yanındadır

**Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər yüksəksəviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni dilə, dinə, mədəniyyətə və bir çox qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib. Xalqın gələcəyinə xidmət edən Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır.**



Türkiyə və Azərbaycan öz tarixinin ən çətin dövrlərində bir-birinə qardaş dəstəyini nümayiş etdirmişlər. Təsadüfi deyil ki, Türkiyə dövlətinin tarixi şəxsiyyəti Mustafa Kamal Atatürk Azərbaycanın kədərini özlərinin kədəri, sevincini isə öz sevincləri olduğunu bildirmişdir. Ulu Öndər Heydər Əliyev isə "Bir millət, iki dövlət Azərbaycan-Türkiyə" kəlamını hər iki ölkənin gələcək nəsillərinə əbədi olaraq bir mesaj vermişdir.

Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda dövlətimizin başçısı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında davam etməkdədir.

2021-ci il 15 iyun tarixində Şuşa şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında qardaşlığın rəmzi olan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı. İmzalanmış bu bəyannamə tarixə əsaslanır və möhkəm təməllərə malikdir. Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb.

XXI əsrdə azad edilmiş Şuşada müttəfiqlik bəyannaməsinin imzalanması bu cür yanaşmanın və qardaşlığın əbədiləşməsinin təcəssümüdür. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapıb. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi - ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, həmçinin enerji təhlükəsizliyi, "Cənub qaz dəhlizi"nin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi qeyd olunur.

Torpaqlarımızın azadlığı uğrunda 2020-ci il sentyabrın 27-dən başlayan, 44 gün davam edən Vətən müharibəsində Türkiyə dövləti Azərbaycana birmənalı və açıq dəstək olduğunu nümayiş etdirdi. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Beynəlxalq səviyyədə nə qədər təzyiqlər olsa da, Türkiyə qardaşlıq mövqeyindən geri çəkilmədi.

Bəyannamədə müdafiə sahəsində əməkdaşlıq, qarşılıqlı hərbi yardım məsələləri də öz əksini tapıb. Bu onu göstərir ki, Türkiyə və Azərbaycan bundan sonra da hər zaman bir yerdə olacaq, necə ki, bu günə qədər iki qardaş ölkə bütün məsələlərdə bir yerdədir.

Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr də öz əksini tapıb. Zəngəzur dəhlizinin önəmi burada ciddi şəkildə ortaya qoyulub. Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizinə çıxışı təmin ediləcək. Bununla yanaşı, dəhliz Türkiyə ilə əlaqələri də gücləndirəcək. Beləliklə, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq. Türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşaya səfəri zamanı bildirib ki, "Şuşada Türkiyənin Baş Konsulluğu" açılacaq. Qəbul olunmuş bu qərar iki ölkə arasında münasibətləri dərinləşdirməklə yanaşı, Türkiyənin işğaldan azad olunmuş ərazilərdə aparılacaq bərpa-quruculuq işlərində oynayacağı böyük roldan da xəbər verir.

Hazırda işğaldan azad olunmuş ərazilərin bərpası sürətlə həyata keçirilir. Vətən müharibəsində olduğu kimi, bu ərazilərdə aparılan yenidənqurma işlərində də Azərbaycan ilə Türkiyə arasında sıx əməkdaşlıq mövcuddur. Çox keçməyəcək işğaldan azad edilmiş torpaqlara həyat qayıdacaq. Həmin ərazilər yenidən çiçəklənəcək, bura təkcə ölkənin deyil, regionun ən inkişaf etmiş bölgələrindən birinə çevriləcək.

***Rufina NAMAZOVA,***
***Qazax Rayon Heydər Əliyev Mərkəzinin əməkdaşı***

# Avropa İttifaqından İlham Əliyevə tam dəstək

## Azərbaycanı regionun ən çiçəklənən, güclü ölkəsi hesab edən beynəlxalq təşkilat ölkəmizlə əməkdaşlığın inkişafına xüsusi önəm verir

*Əvvəli 1-ci səh.*

Bu, ölkəmizin xarici siyasətinin uğurunun təzahürü kimi təqdirəlayiqdir. Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri, təbii ki, Avropa İttifaqı ilə tərəfdaşlıqdır. Son 18 ildə Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil siyasət, milli maraqlara əsaslanan uğurlu diplomatiya sayəsində Azərbaycan qlobal məkanda strateji əhəmiyyəti olan dövlətə çevrilib. Bunun nəticəsidir ki, Azərbaycan Avropa İttifaqı ölkələri ilə əməkdaşlıqda böyük təcrübəyə malikdir. Ölkəmiz demək olar ki, qurumun üzvü olan dövlətlərin üçdəbiri ilə strateji tərəfdaşlıq haqqında saziş imzalayıb. Bununla yanaşı, Azərbaycan Avropanın enerji təhlükəsizliyi və təchizatının şaxələndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Son illərdə isə Azərbaycanla Aİ arasında münasibətlərdə yeni bir səhifə açılıb, münasibətlər yeni mərhələyə qədəm qoyub. Azərbaycanla Avropa İttifaqı arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi isə rəsmi Bakının xarici siyasətinin növbəti uğuru idi. Münasibətlərdə yeni səhifə açan sənəddə qeyd edildiyi kimi, əlaqələrin daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq Azərbaycan və Aİ tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Bir sıra mühüm məsələlərin yer aldığı sənəddə Azərbaycan ilə Avropa İttifaqı arasında vizaların ləğvi sahəsində dialoqun perspektivləri də əksini tapıb. Bütövlükdə bu sənəd ikitərəfli tərəfdaşlıq əlaqələrinin inkişafı üçün yeni zəmin yaradıb. Ən əsası "Tərəfdaşlıq prioritetləri"ndə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Azərbaycanı regionun ən çiçəklənən, güclü ölkəsi kimi qiymətləndirən Oliver Varhelyi ölkəmizin həm də qlobal pandemiya ilə uğurlu mübarizə apardığını və böhrandan ən az zərərlə çıxan dövlət olduğunu vurğulayıb. Bu, əsl reallığı bir daha təsdiqləyir.

Aİ komissarının sözlərinə görə, Azərbaycanın gələcəyi və rifahı regiondakı ölkələrin gələcəyindən və rifahından asılıdır: "Biz Azərbaycan hökuməti ilə İqtisadi və İnvestisiya Planının necə reallaşması, Azərbaycanın necə inklüziv olması barədə aspektləri müzakirə etdik".

Komissar qeyd edib ki, bölgədə rəsmilərlə müzakirələr apararkən ortaq mövzuların - bağlılıq, əlaqələnmə məsələsinin problem kimi ortaya çıxmasının şahidi olublar: "Bu problem ticarətə, iqtisadiyyata mane olur. Əlaqələnmə deyərkən, mən Qara dənizin Xəzərə bağlanmasını, Azərbaycandan keçən xətləri nəzərdə tuturam. Azərbaycan çiçəklənən ölkədir, ola bilsin, onun Aİ-nin maliyyə dəstəyinə ehtiyacı olmasın. Buna görə biz Azərbaycanla əməkdaşlığa fərqli aspektdən yanaşırıq. Avropadan investorların buraya cəlbini, bilik və təcrübənin paylaşılmasını vurğulayırıq ki, bu da bizim aramızda uzunmüddətli əməkdaşlıq üçün əsas ola bilər. Ona görə mən həm də Bakı Limanına getdim, rəhbərliklə maraqlı müzakirəmiz oldu, onların limanın inkişafı ilə bağlı planları var".

Bakı Limanının davamlı nəqliyyat rabitəsinin təminatı baxımından Avropa İttifaqının diqqətində olduğunu deyən Oliver Varhelyi bildirib ki, təmsil etdiyi qurum limanda fərqli layihələrə sərmayə qoymağa hazırdır və rəqəmsallaşma, "yaşıl liman" istiqamətində də dəstəyini davam etdirəcək. Bütün bu addımlar isə təsdiq edir ki, Bakı Limanı Xəzər hövzəsində ən etibarlı qovşağa çevriləcək.

Aİ rəsmisinin fikirlərinə diqqət etsək görərik ki, bu beynəlxalq təşkilat Azərbaycana xüsusi önəm verir. Regionun aparıcı ölkəsi kimi bölgənin postpandemiya dövründə bərpası və inkişafı məsələlərinin məhz Azərbaycanla müzakirə edilməsi, Xəzər dənizi ilə Qara dəniz arasında əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın böyük önəminin olması fikirləri təsdiq edir ki, Aİ Azərbaycanla əməkdaşlığı daha da şaxələndirmək niyyətindədir.

Komissarın Azərbaycanın iqtisadi gücə və maliyyə imkanlarına malik ölkə kimi xüsusi qeyd etməsi, ölkəmizlə əlaqələrin inkişafı məsələlərinin Aİ-nin maliyyə yardımı nöqteyi-nəzərindən deyil, məhz əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi prizmasından qiymətləndirilməsi də bu nüfuzlu qurumun Azərbaycana tam fərqli münasibət nümayiş etdirdiyini təsdiqləyən reallıqdır. Oliver Varhelyinin həmçinin Azərbaycanın nəqliyyat-tranzit infrastrukturunu yüksək qiymətləndirməsi, ticarət marşrutlarının diversifikasiyası və optimallaşdırılmasında ölkəmizin mühüm əhəmiyyətini xüsusi vurğulaması, eləcə də müharibənin nəticələrinin tam qəbul edildiyinə istiqamətlənmiş postmüharibə mərhələsindən danışması, Aİ-nin müharibənin nəticələrinin aradan qaldırılması, regionda uzunmüddətli sülhün yaranması istiqamətində işləməyə hazır olmasını bəyan etməsi də təşkilatın Azərbaycanla əlaqələrin inkişafına verdiyi qiymətin real təzahürüdür.

Bu gün Azərbaycan tək Aİ ilə deyil, həm də bu quruma üzv ölkələrlə də sıx əlaqələrə malikdir. Bu əlaqələrin bütün səviyyələrdə dərinləşdirilməsi isə həm Azərbaycanın, həm Aİ-nin, həm də bu quruma üzv ölkələrin maraqlarına cavab verir.

Prezident İlham Əliyevin Aİ Şurasının prezidenti Donald Tuskla keçirdiyi görüşlər və bu görüşdə Aİ rəsmisinin səsləndirdiyi fikirlər bir daha Azərbaycan-Avropa İttifaqı münasibətlərinin qarşılıqlı maraqlar əsasında inkişaf etdiyini təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qubadlı və Laçın rayonlarında Dövlət Sərhəd Xidmətinin iki yeni hərbi hissəsi istifadəyə verilib

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə kompleks tədbirlər davam etdirilir.







Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, iyulun 8-də Qubadlı və Laçın rayonları ərazisində DSX-nin iki yeni hərbi hissəsi xidməti istifadəyə verilib.

Bununla əlaqədar təşkil olunmuş mərasimlərdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev işğaldan azad olunmuş ərazilərimizdə yeni hərbi hissə komplekslərinin xidməti-döyüş fəaliyyətinə başlaması münasibətilə şəxsi heyəti təbrik edib.

Qeyd olunub ki, ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasından və dövlət sərhədlərimizin işğaldan azad edilməsindən sonra bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması, hərbi qulluqçuların xidməti şəraitinin və sosial təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Yeni hərbi hissələrin xidməti-döyüş fəaliyyətinə başlaması dövlət sərhədinin mühafizəsi məsələlərinə ali diqqətin növbəti təzahürüdür.

Vurğulanıb ki, Ermənistanla dövlət sərhədinin əhəmiyyətli hissəsinin mühafizəsinə cavabdeh olacaq yeni hərbi hissələrin fəaliyyətə başlaması xüsusi əhəmiyyət kəsb edir. Vətən müharibəsində döyüş tapşırıqlarını uğurla icra edərək şücaət göstərən, bu gün də düşmən tapdağından azad olunmuş müqəddəs sərhədlərimizin toxunulmazlığını təmin edən Azərbaycan sərhədçiləri ölkəmizin ərazi hüdudlarının mühafizəsi vəzifəsini hər zaman layiqincə yerinə yetirəcəklər.

Tədbir çərçivəsində Vətən müharibəsində şücaət və qəhrəmanlıq göstərərək Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarının və Şuşa şəhərinin azad olunmasında fərqləndiklərinə görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif edilmiş hərbi qulluqçulara orden və medallar təqdim olunub. Açılış mərasimindən sonra hərbi qulluqçuların xidməti fəaliyyətinin təşkili üçün yaradılmış şəraitlə tanışlıq olub, o cümlədən zəruri avadanlıqlar, mebel, məişət əşyaları, istilik sistemi ilə təmin edilmiş xidməti otaqlara, kazarma və yeməkxanaya, hamam-camaşırxana kompleksinə, anbarlara, döyüş texnikasına, silah və texniki vasitələrə baxış keçirilib.

Tədbirin sonunda şəxsi heyətlə birgə nahar edilib, xatirə fotoşəkilləri çəkilib, Dövlət Sərhəd Xidmətinin nümunəvi orkestrinin və rəqs ansamblının ifasında konsert proqramı şəxsi heyətə təqdim olunub.

Sonra "Qubadlı" əlahiddə sərhəd diviziyasının rəhbər heyətinin iştirakı ilə xidməti müşavirə keçirilib, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi tapşırıqların icra vəziyyəti, xidməti ərazidə mövcud olan əməliyyat şəraiti və görülən işlər haqqında vəzifəli şəxslərin məruzələri dinlənilib, dövlət sərhədinin müdafiəsi və mühafizəsi istiqamətində həyata keçirilən tədbirlər yüksək qiymətləndirilib.

Hərbi hissə və bölmələrin döyüş hazırlığının daha da yüksəldilməsi və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi üzrə görülən işlər yoxlanılıb, sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüş keçirilib, hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitlərinə baxış olub.

# Gəncədə erməni terrorundan ziyan çəkənlərin bir qisminə kompensasiya ödənilib

*Əvvəli 1-ci səh.*

Şəhərə atılan raket zərbələri nəticəsində zərərçəkən ailələrin bir qismi Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən inşa edilən yeni yaşayış kompleksində tam təmirli mənzillərlə təmin edilmiş, digər 12 ailəyə isə istəklərinə uyğun olaraq razılaşdırılmış qaydada mənzillərinin dəyəri məbləğində pul vəsaiti verilmişdir. Yusif Zeynalovun evi erməni terroru nəticəsində 2020-ci il oktyabrın 11-də dağılmışdır. "Ermənilərin başımıza açdığı fəlakətdən sonra dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunduq. İndi isə evimizin dəyəri məbləğində kompensasiya aldıq. İndi, şükür, ev sarıdan problemimiz yoxdur".

Bəsti Xəlilova da Gəncəyə atılan raketdən zərərçəkən sakinlərdəndir: "Ermənilər tərəfindən atılan raket nəticəsində ailə üzvlərimiz xəsarət aldı, evimiz isə tamamilə yararsız vəziyyətə düşdü. Lakin hər an dövlətimizin diqqətini hiss etdik. Çox şükür, tarixi torpaqlarımıza qovuşmuşuq. İndi isə sevincimiz ikiqatdır, bizə mənzillə təmin olunmaq üçün kompensasiya ödənilmişdir".

Pərvin Cavadov: "Oktyabrın 11-də ermənilərin atdığı raket mənim evimi də dağıtmışdır. Kommissiya tərəfindən mənzil təklif olundu. Lakin biz mənzilin dəyəri məbləğində pul vəsaiti xahiş etdik. Çox sağ olsunlar, xahişimizi nəzərə alaraq kompensasiyamızı ödədilər".

Elnur Heydərov: "Mənə və mənim kimi zərərçəkən ailələrdən öz diqqətini əsirgəmədiyi üçün dövlət başçısına təşəkkürümü bildirirəm. Digər ailələr kimi mənə də kompensasiya köçürülüb. Üstəlik, əşyalara dəyən ziyan da ödənilib. Bu müddət ərzində isə yaşayış yeri ilə də təmin olunmuşduq".

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi Cəbrayıl rayonunun Dağ Maşanlı kəndindən görüntülər paylaşıb

**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Dağ Maşanlı kəndindən görüntülər paylaşıb.**

AZƏRTAC Müdafiə Nazirliyinin Mətbuat xidmətinə istinadla həmin görüntüləri təqdim edir.

Dağ Maşanlı 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu.

İkinci Qarabağ müharibəsində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu ötən il oktyabrın 25-də kəndi işğaldan azad edib.



Cəbrayıl rayonu
Dağ Maşanlı kəndi

## ◆ Qarabağ söhbətləri

# «Qarabağ ömrümün bir parçasıdır...»






**Belə bir deyim var: bütün qara rənglər, əslində, qırmızıya doğru gedən yoldur və qarşıdakı qırmızıya qaradan keçirsənsə, o qırmızı sənə olduğundan daha cazibəli görünür... Qaradan keçib qırmızıya çıxdığımız günlərdə "Qarabağ söhbətləri"ndə həmsöhbətimiz Zəngilanda doğulub, Şuşada böyümüş professor Qulu Məhərrəmlidir...**

**Qulu müəllim Qarabağlı, Qarabağsız günlərini xatırlayır...**

## Şuşa mənim üçün işıqlı xatirələr deməkdir

- Şuşa hər kəs üçün bir cür doğmadır, mənə isə ikiqat yaxındır. Uşaqlıq və yeniyetməlik illərim burada keçib. Orta təhsilimi bu şəhərdəki 3 nömrəli internat-məktəbdə almışam. Dünyanı dərk etməyimdə, az-çox bilik və dünyagörüşü qazanmağımda Şuşa önəmli rol oynayıb.

Zəngilanda doğulmuşam, Şuşada oxumuşam, bu mənada, böyük çıxmasın, Qarabağ ömrümün bir parçasıdır. 6 yaşım olanda atam rəhmətə gedib. Əmim böyük qardaşımla məni aparıb Şuşada 3 saylı internat məktəbinə qoymuşdu. Bütün təminatımız orda dövlət hesabına idi, orda da qalırdıq. Yaxşı müəllimlərimiz vardı.

Sabir Zeynalov bizə ədəbiyyatdan dərs deyib. Fazil müəllim kimyadan. Elə müəllimlər idilər ki, Şuşada hamı onları tanıyırdı. Parlaq müəllimlərimiz vardı, yaxşı tərbiyə edirdilər bizi. Ağdama, Xankəndiyə fənn olimpiadalarına gedərdik. Xankəndidə həm riyaziyyat olimpiadasında iştirak etmişəm, həm də qaçış yarışlarında birinci yerə çıxmışam.

O bölgənin hamısı mənə doğmadır. Yuxarı siniflərdə tətillərdə Zəngilana qayıdanda yolumuz Ağdamdan keçirdi. Ağdamdan Füzuliyə gedirdik, ordan Zəngilan - Gəncə avtobusu ilə Zəngilana. Maraqlı dövr idi. Burada güləşə də gedirdim. Güləş müəllimimiz Bəhmən müəllim respublika çempionu idi.

Orta məktəbi orda başa vurub gəlib Bakıda universitetə daxil oldum. Orta məktəbdə oxuyanda, tələbəlik illərində də "Şuşa" qəzetində yazılarım çap olunurdu. İlk qəzetçilik təcrübəmi "Şuşa" qəzetində keçmişəm. Qəzetin İsrafil Əbilov kimi peşəkar baş redaktoru vardı. Təcrübədə olduğumuz müddətdə qəzeti bizə həvalə etdi. Ağdamdan Çingiz Aslanovla birlikdə qəzeti hazırlayıb çapa verdik.

Sonralar iki dəfə Şuşada olmuşam. Bir 80-ci illərin ortalarında, bir də sonuncu dəfə 1990-cı ilin iyununda siyasi icmalçılar Murtuz Ələsgərov, Seyfəddin Qəndilov və bir qrup jurnalistlə birlikdə.

Şuşalı xatirələr danışdıqca bitməz. O vaxtlar ermənilərlə aramızda elə bir xüsusi düşmənçilik yox idi, hər halda, biz hiss etmirdik. Ancaq "Ararat"la "Neftçi" oynayanda dava düşürdü. Erməni ocaqçı vardı internatda, deyirdi ki, "Neftçi" bütün oyunlarını "Ararat"la oynadığı kimi prinsipial oynasa, çempion olar. Ermənilər, əsasən, evlərin tikintisində bənna, suvaqçı işləyərdilər. İnternatda gecə növbəsində işləyənlərə "gecə nənəsi" deyərdik. Onlardan biri erməni idi. Səs edən uşaqları yaman döyürdü. Sonradan ağlımız kəsdi ki, bu bizi düşmən kimi döyürmüş, nifrətlə.

## Şuşanın işğalında özümü də günahkar bilirdim

- Şuşada istirahət evləri tərəfdə bir neçə yanmış bina qalırdı. Deyirdilər erməni-müsəlman davasında ermənilər yandırıb. Təmir etməmişdilər onları. Bir də quyular vardı. Bizim internatın dövrəsində də vardı. Deyirdilər adamlar bu quyularda gizlənərmiş.

1992-ci ildə çətin günlər idi. Şuşa ətrafında müxtəlif söhbətlər gəzirdi. Kimi deyirdi işğal ediblər, kimi deyirdi yox, bizdədir. Azərbaycan televiziyasında gecə xəbərlərində Müdafiə Nazirliyindən gələn xəbəri oxudum. Məlumatda deyilirdi ki, şəhərə girən erməniləri Azərbaycan Ordusu çıxarıb və hazırda şəhərə əsgərlərimiz nəzarət edir. Sən demə, yalan imiş. Oxudum, efirdən sonra xoş əhvalla evə piyada getdim. Səhər eşitdik ki, Şuşa işğal edilib. Çox sarsıldım. Şuşanı necə itirmək olardı?!. Bu məsələ ürəyimdə qalmışdı. Şuşanın işğalında özümü də günahkar bilirdim. Şuşa mənim üçün uşaqlıq yaddaşıdır, əlavə rəngi var mənə görə.

Bu dəfə gedəndə gördüm yoxdur 3 nömrəli internat məktəb, dağıdıblar. Şəhərə girəndə özümü çox rahat hiss etdim. Hətta bələdçi kimi avtobusa yolu göstərirdim. Şagird yoldaşlarımın evlərini gördüm, dərhal zəng etdim ki, eviniz yerindədir, darvazanıza toxundum. Çox maraqlı və qürurverici idi.

## Azərbaycan mədəniyyəti Cıdır düzündə Şuşaya imtahan verdi

- "Xarıbülbül" festivalı yalnız mədəniyyət hadisəsi deyildi. Bu tədbirin siyasi, ictimai, hərbi, həm də tarixi əhəmiyyəti vardı. Mahiyyətcə mədəniyyət tədbiridir. Kökündə Azərbaycanda yaşayan kiçik xalqların öz mədəniyyətlərini nümayişi dayanır. Baxırsan ki, Azərbaycan milli-etnik tərkib baxımından nə qədər zənginmiş. Ləzgi, avar, talış, rus, ukraynalı, gürcü, yəhudi, udi - hamısı çıxış etdi.

"Bayatı-şiraz"la bütün yaddaş oyandı. Cıdır düzü özü də elə bil, o səs üçün darıxmışdı. İki gün Şuşada Azərbaycan musiqisinin möhtəşəm performansı oldu. Orda yaşanan duyğuları heç kim tam ifadə edə bilməz. Üzeyir bəyin musiqiləri - "Koroğlu" uvertürası bütün tarixi yaşadır özündə. Bülbülün səsi, Vasif Adıgözəlovun "Qarabağ şikəstəsi" oratoriyası, Xanın ifası - hamısı möcüzədir. Azərbaycan mədəniyyəti Cıdır düzündə Şuşaya imtahan verdi. Uzun ayrılıqdan sonra hesabat verdi. Dedi bu mədəniyyət ölməyib, solmayıb, hələ inkişaf da edib və burdadır.

Qalib xalqın övladı kimi hiss etmək qədər də Cıdır düzündəki o tədbirdən qürurlandım. Bu qələbəni qazanan və bu mədəniyyəti yaratmış xalqa məxsus olduğunu düşünmək çox gözəl hiss idi. Qısa müddətdə elə möhtəşəm tədbir keçirmək də təqdirəlayiqdir.

Şuşa qeyri-adi havasına, gözəl təbiətinə və coğrafi şəraitinə görə potensial turizm məkanıdır. Hazırda bu istiqamətdə də ciddi işlər gedir. Şəhərdə tarixi dəyəri olan 300-dən çox obyekt müəyyənləşdirilib. Onların təmir edilib turist marşrutlarına salınması əsas vəzifələr sırasındadır. Şuşada "Xarıbülbül" hotelinin yenidənqurmadan sonra istifadəyə verilməsi turizm sahəsində ciddi bir addım oldu.

## Gövhər ağanın övlad vəsiyyəti

- Şuşanı gəzərkən beynimdə Gövhər ağanın vəsiyyəti təkrarlanırdı. Fikrimdən çıxmırdı, nədənsə. Onun da ruhu indi şaddır. Hələ 1901-ci ildə Şuşadan "Kaspi" qəzetinə göndərilmiş bir məktubda yazılır ki, Qarabağ hökmdarı İbrahim xanın qızı Gövhər ağa 1883-cü ildə Şuşada iki məscid və onların nəzdində mədrəsə yaradıb. O, vəfatından əvvəl vəsiyyət edib ki, Qarabağdakı mülklərindən gələn gəlirlər məscid və mədrəsənin ehtiyaclarına xərclənsin. Qəzet 1888-ci ildə vəfat etmiş Gövhər ağanın vəsiyyətindən bu sətirləri də dərc etmişdi: "Bu müvəqqəti dünyadan haqq dünyasına, əbədi dünyaya köçməyimin yaxınlaşdığını hiss edirəm. Övladım olmadığı üçün sizə qoyub getdiyim məscid və mədrəsədən daha qiymətli heç nəyim qalmır. Sizə - məndən sonra hakim olacaq şəxslərə, cəmiyyətə təsir edə biləcək adamlara, nüfuzlu insanlara, bütün müsəlmanlara vəsiyyət edirəm ki, bu məscid və mədrəsəni yadların işğalından qoruyasınız".

Bu gün təkcə intizar çəkən Gövhər ağanın deyil, onun adına olan məscidin memarı, Qarabağda bir çox tikililərin, o cümlədən Ağdamda bərbad hala salınmış məscidin müəllifi olan Kərbəlayi Səfixan Qarabağinin də, orada nəqqaşlıq etmiş Mir Mövsüm Nəvvabın da ruhu şaddır. Şuşa azad edildikdən bu yana məscid qısa müddətdə istifadəyə yararlı hala salınıb və orada ilk dəfə Ramazan namazı qılınıb. Amma bunlar insan ruhunu şad edəcək işlərin heç də hamısı deyil. Çox böyük işlərə start verilib və hələ qarşıda görülməli olan işlər çoxdur.

Şuşaya getməmiş Zəngilana gedə bilməzdim. Qəribə bir hiss var ki, Şuşada nə isə məktəb olsun və mən o məktəbdə dərs deyim. Şuşa televiziyası açılsa, televiziyada da işləyə bilərəm. Hələ ki, radio açılır Şuşada. Bütün bunlarla belə, mən canlı ünsiyyətə can atıram. Makarenkonu vaxtında çox dərin oxumuşam, məktəb uşaqları ilə yaxşı dil tapıram.

Şuşanın yuxarı məhəlləsində Qazançı kilsəsinin yanında yeni məscidin bünövrəsi qoyuldu. Layihəsini Azərbaycan və İtaliya memarları hazırlayıblar. Çox maraqlı tikili olacaq. Bundan sonra Şuşanın bütün mədəniyyət tədbirlərinin də içindən qəhrəmanlıq tariximiz keçəcək. Hərb tarixinə düşəcək bir taktika ilə azad olunub Şuşa. Bundan sonrakı Şuşa o şərəfli tarixlə yaşayacaq...

*Ötən ilin sonunadək cümləmizin əvvəli, sonu Qarabağ həsrəti olardı. Onunla başlayıb, onunla bitirərdik müsahibələri, söhbətləri. Bu gün acı, ağrılı tarixlə başlayıb zəfər tarixi ilə bitiririk müsahibələri. "Gün o gün olsun ki, Şuşada, Ağdamda, Cəbrayılda görüşək" - arzularımız çin oldu. Azərbaycanın zəfəri ədalətin bərpası oldu...*

***Ramilə QURBANLI,***
***"Azərbaycan"***

# İstirahəti faciəyə çevirməyək

## Çimərlik mövsümü təəssüf ki, yenə də itkilərlə başlayıb



*Əvvəli 1-ci səh.*

Lakin yay mövsümündə çimmək üçün ən etibarlı yerlər belə sahilyanı zonalar deyil, icazə verilmiş çimərlik əraziləridir. Səlahiyyətli qurumlar insanlara bütün hallarda yalnız çimərlik ərazilərindən istifadə etməyi tövsiyə edir, qadağan edilmiş ərazilərdə üzmək isə yolverilməz hesab edilir.

Çimmək üçün qadağan edilmiş ərazilər Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin birgə apardığı monitorinqlər əsasında, dəniz suyunun laborator müayinələrinin nəticəsinə görə müəyyən edilir. Hər il dəniz mövsümü ərəfəsində - may ayından başlanılan monitorinqlər yay mövsümü boyunca 15 gündən bir keçirilir. Bu il aparılmış monitorinqlər zamanı dəniz suyunun keyfiyyət göstəriciləri norma daxilində müəyyən edildiyi üçün Abşeron yarımadasında Bilgəh, Novxanı, Mərdəkan, Şüvəlan, Goradil, Zuğulba, Nardaran və Buzovna çimərlikləri çimmək üçün yararlı hesab edilib.

İyunun 10-dan başlanan builki çimərlik mövsümü dövründə pandemiya şəraiti ilə əlaqədar karantin rejiminin qaydalarına əməl edilməsi şərti ilə adıçəkilən çimərliklərdən istifadə tövsiyə edilir. Qaydalara görə, insanlar çimərlikdə olarkən (ailə üzvləri istisna olmaqla) onların arasındakı məsafə 2 metr, çətirlərin oxları arasındakı minimal məsafə 4 metr olmalıdır. Qapalı yerlərdə mütləq, açıq ərazilərdə və su ilə təmas olmayan yerlərdə mümkün qədər tibbi maskadan istifadə edilməlidir.

### Özəl çimərliklərin alternativləri

İctimai çimərliklər özəl çimərliklərə gedə bilməyən, təhlükəsiz sayılan və xəstəlik mənbəyi olmayan çimərliklərdə çimmək istəməyənlər üçün ən yaxşı seçimdir. Hələ bir neçə il əvvəl insanların daha yaxşı çimərliklərdən istifadəsinin təmin edilməsi məqsədilə Azərbaycanda da nümunəvi ictimai çimərliklərin yaradılmasına ehtiyacın olduğu bildirilirdi. Artıq iki ildir ki, bir çox ölkələrdə mövcud olan nümunəvi ictimai çimərlik praktikası Abşeron yarımadasının bəzi dənizkənarı ərazilərində də tətbiq edilib.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətinin rəhbəri İsrafil Kərimov bildirir ki, hazırda belə çimərliklər 6 yerdə - Bakının Sahil, Buzovna, Pirşağı qəsəbələrində, Səbail rayonundakı "Şıx" çimərliyinin ərazisində, Abşeron rayonunun Novxanı, Görədil qəsəbələrində fəaliyyət göstərir. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yaradılan ictimai çəmərliklər özəl çimərliklərə alternativ olaraq fəaliyyət göstərir. İctimai çimərliklərin ərazilərində soyunub-geyinmə və duş kabinaları, sanitar qovşaqlar, söhbətgahlar quraşdırılıb, maarifləndirici lövhələr, poster və elanlar yerləşdirilib, Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri yaradılıb.

İsrafil Kərimov əlavə edir ki, bu çimərliklərə giriş və xidmətlərdən istifadə tamamilə ödənişsizdir. COVID-19 pandemiyasının hələ də davam etməsi ilə əlaqədar vətəndaşların sağlamlığının qorunması məqsədilə hər bir çimərlikdə mövcud epidemioloji vəziyyətə uyğun tədbirlər görülüb.



















### İstirahətinizin faciə ilə bitməsini istəmirsinizsə…

Xəzər dənizinə sahildən su kanalları vasitəsilə axıdılan tullantıların həcmi azalsa da, bəzi yerlərdə bu hala yenə də rast gəlinir. Belə hallar, əsasən, qeyri-çimərlik ərazilərində müşahidə edilib. Belə yerlərdə çirkləndirilmiş dəniz suyu vasitəsilə orqanizmə keçən zərərli bakteriya və mikroblar insanlarda mədə-bağırsaq xəstəliklərinin, dəri viruslarının yaranmasına səbəb ola bilir. Çirkli su həssas dərisi olanlar üçün daha təhlükəli sayılır.

Lakin təkcə sağlamlıq baxımından deyil, həm də təhlükəsizlik baxımından da çox riskli hesab edilən bu cür sahilyanı zonalarda xilasetmə məntəqələrinin olmaması, bədbəxt hadisələrin qarşısını ala biləcək hər hansı tədbirlərin görülməməsi burada keçirilən dəniz istirahətinin sonunun bir çox hallarda faciə ilə - ölümlə nəticələnməsinə səbəb olur. İnsanların bu cür çimərliklərə üz tutması yay mövsümünün ən narahatedici məsələlərindən biri kimi dənizdə boğulmaların sayının artmasına gətirib çıxarır. Dəniz mövsümünün yeni başlamasına baxmayaraq, artıq mətbuatda boğulma halları ilə bağlı məlumatlar yayılır.

Mütəxəssislərin fikrincə, dənizə gedən zaman hava şəraitinin nəzərə alınmaması, çimmək üçün təhlükəsizlik tədbirlərinin görülmədiyi yerlərin seçilməsi boğulma hallarının baş verməsinin əsas səbəblərindədir. Buna görə də xilasedicilərin olmadığı, təhlükəsizlik tədbirlərinin görülmədiyi dəniz sahillərinə getmək tövsiyə edilmir.

Boğulma təhlükəsi zamanı ən çox rast gəlinən problemlərdən biri boğulana kömək etmək istəyənin də suda batmasıdır. Məsələn, bu günlərdə Xaçmaz rayonunun Nabran kəndi ərazisində dənizdə çimərkən boğulan Quba sakini Nemət Hüseynova yardım göstərmək istəyən dostu Naib Talıbov da dənizdə bataraq ölüb.

Dənizdə boğulma zamanı belə halların yaranmasının əsas səbəbi boğulan və ona kömək edənin qarşı-qarşıya qaldıqları zaman bir-birləri ilə necə davranmalı olduqlarını bilməmələridir. Boğulma hallarının başlıca səbəbi suda olan şəxsin təşvişə düşməsidir. İnsan təşvişə düşəndə suyun üzərinə çıxmaq üçün daha çox fiziki güc sərf edir, nəticədə onun əzələləri yorulur, bu da batması ilə nəticələnir. Suda batan, ilk növbədə, tutmağa cəhd etdiyindən o, özü ilə bərabər xilas edəni də batırır. Buna görə də suda boğulanı xilas edərkən ehtiyatlı olmaq lazımdır. Batan şəxsə arxa tərəfdən yaxınlaşmaq, onun saçlarından, paltarının yaxalığından və ya qoltuqaltı nahiyəsindən tutaraq üzünu yuxarı çevirməklə birlikdə sahilə tərəf üzmək lazımdır. Batan şəxsin üzü mütləq suyun səthindən yuxarıda olmalıdır.

Fövqəladə Hallar Nazirliyi (FHN) çimərlik mövsümünün başlaması ilə əlaqədar əhaliyə etdiyi müraciətində insanları təhlükəsizlik qaydalarına əməl etməyə çağırıb. Nazirlik insanları çimmə zonasının işarələnmiş sərhədlərindən kənarda üzməyin, küləkli havada dənizə girməyin, çimərlikdə gecələməyin, sərxoş halda olmağın, balıq tutmağın, suda kobud hərəkətlər etməyin, xilasetmə texnikasından başqa digər qayıq və kiçik gəmilərlə çimərliyə daxil olmağın qadağan olunduğunu açıqlayıb.

Əlbəttə, düzgün təşkil edilmiş dəniz istirahətinin xeyri var. Tövsiyə edilən çimərliklərdə günəş vannasının qəbulu, tərkibi faydalı elementlərlə zəngin olan duzlu dəniz suyu və təmiz dəniz havası insanların sağlamlığına müsbət təsir göstərir. İnsanlar çimərliklərə getməklə daha çox D vitamini qəbul edirlər ki, bütün bunlar da onların immunitetini gücləndirir.

Lakin çimərliyin faydası ilə yanaşı, təhlükəsi də var. Yaya gözəllik qatan dəniz istirahətinin xoş anlarla yadda qalması üçün üzləşə biləcəyimiz fəlakətlərdən, xüsusilə boğulmalardan qorunmaq lazımdır. Bunun ən yaxşı üsulu onun profilaktikası - çimərliyə münasib hava şəraitinin olduğu vaxtda getmək, çimmək üçün düzgün ərazi seçmək, dənizin tövsiyə edilən sərhədinə qədər üzmək və digər vacib şərtlərə əməl etməkdir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Vaksinin insan həyatında rolu danılmazdır

## Sağlamlığın əsası uşaq yaşlarından peyvəndləmə ilə qoyulmalıdır

*Əvvəli 1-ci səh.*

Peyvəndlənmə bizə hələ uşaq yaşlarından məlumdur. Lakin biz heç də peyvəndlərin nədən hazırlanmasının fərqinə varmamışıq. Peyvəndlərin sağlamlığımızdakı əhəmiyyətini olduğu kimi dərk etməmişik. Bütün bunlar yalnız həkimlərə məlum olub.

Bu gün də sağlam həyatımız vaksindən, peyvəndləmədən asılıdır. Ona görə də vaksin haqqında bəzi məlumatları həkimlə birlikdə nəzərdən keçirmək qərarına gəldik.

Bakı şəhəri 22 nömrəli uşaq poliklinikasında ailə həkimi kimi fəaliyyət göstərən, ixtisasca pediatr olan Aygün Cəfərliyə müraciət etdik. Həkim öncə vaksinin hazırlanmasına aydınlıq gətirdi: "Vaksin öldürülmüş və ya zəiflədilmiş mikroblar, onların ifraz etdiyi bəzi antigen xassəli maddələrdir. Vaksin həmçinin gen mühəndisliyi ilə də alına bilir. Çünki immun sistemi bu maddələri antigen kimi qəbul edir və ona qarşı antiteller (humoral immunitet) yaradır. Müasir dövrdə yoluxucu xəstəliklərə qarşı mübarizə metodlarından ən effektli və iqtisadi cəhətdən əlverişli üsul vaksinasiyadır. Əsas prinsipini müəyyən infeksion törədiciyə qarşı spesifik immun cavabın yaranması təşkil edir. Bu prosses aktiv immunizasiya adlanır. Belə spesifik əks cisimlərin hazır şəkildə heyvanlardan və ya donor insanlardan alınıb orqanizmə yeridilməsi passiv immunizasiyadır..."

Həkimin fikri maraqlıdır: qədim dövrlərdən müşahidə olunub ki, ağır yoluxucu xəstəlikləri bir dəfə keçirən, daha ona tutulmur və yaxud yüngül keçirir. Ona görə də pandemiya və epidemiyalar zamanı belə şəxslərdən müəyyən qruplar yaradılırdı və onlar xəstələrə qulluq edirdilər: "Vaksin terminini elmə ilk dəfə ingilis həkimi Edvard Cennerin şərəfinə Lui Paster gətirib. O, ilk dəfə insanları "təbii çiçək"dən qorumaq məqsədilə onları inəyin "təbii çiçək" virusu ilə immunizə etmiş və bunun 100 faiz effektliyini təsdiqləmişdir. Edvard Cennerin davamçısı Lui Paster diri mikrobların təbii antigenliyini zəiflədərək, onlardan vaksin hazırlayıb. Bu məqsədlə o, yüksək temperaturdan istifadə edib və buradan da "pasterizasiya" termini əmələ gəlib.

Vaksinasiyanın əsas məqsədi orqanizmdə erkən dövrdə güclü immunitet yaratmaqdır. Vaksinasiyaya əsas yoluxucu xəstəliklərin yayılma təhlükəsinin artması, eləcə də əhali arasında epidemiyaların baş verməsi hesab edilir. Kütləvi profılaktika tədbirləri aparılarkən vaksinasiyaya əks göstərişlər, həmçinin insanın ümumi vəziyyəti nəzərə alınmalıdır".

Vaksinasiyalara qarşı nəzərdə tutulan əks göstəricilərə bunlar aiddir: kəskin yoluxucu və somatik, parenximatoz orqanların (qaraciyər, böyrək) çatışmazlıqları, kəskin ürək-damar, mərkəzi sinir sistemi orqanları, bədxassəli xəstəliklər, ağır immun çatışmazlıqları, allergik reaksiyalar və s.

Vaksin tətbiq olunduqdan sonra əgər orqanizmin temperaturu qısamüddətli qalxarsa, yerli əlamətlər (hiperemiya, inyeksiya nahiyəsində şişkinlik) qəbul olunmuş norma həddində isə peyvəndin təyini əks göstərici hesab edilməməlidir.

Hazırda Amerikada 5 yaşa çatmış uşaqların 98 faizdən çoxu planlaşdırılmış immunizasiyaya məruz qalırlar. Bunsuz uşaqlar məktəbə qəbul edilmirlər. Göyöskürək vaksininin tərkibindən hüceyrə komponentinin çıxarılması onun xoşagəlməz təsirlərini aşağı salır.



Bir çox inkişaf etmiş ölkələrdə əlavə olaraq hepatit B-yə qarşı xüsusi vaksinasiya aparılır.

Aygün xanım qeyd edir ki, erkən aparılan peyvənd uşaqları difteriya, iflic, tetanus və s. kimi bir çox ciddi və ölümcül xəstəliklərdən qoruyur. Əgər uşağınız bu xəstəliklərə yoluxmursa, deməli, adını bilmədiyiniz peyvəndlər köməyə gəlib. Lakin uşağın immunitet sistemi aşağıdırsa, görünməyən xəstəliklər onu təkrarən yaxalaya bilər: "Peyvəndlər aşağı temperaturda qızdırma, infeksiya yerində qızartı və şişkinlik kimi təsirlər yarada bilir. Bəzi peyvəndlər müvəqqəti olaraq başağrısı, başgicəllənmə, halsızlıq və iştahasızlıq meydana gətirir. Nadir hallarda rast gəlinən belə kənar təsirlər əndişəyə səbəb olsa da, peyvəndlər uşaqları ölümcül xəstəliklərə yaxalanmaqdan qoruyur. Unutmayaq ki, allergiyaya meyilli uşağa peyvənd olmaz.

Uşaqlar kiçik yaşlarında təhlükəli xəstəliklərə daha çox məruz qaldıqlarından və onları bunlardan qorumaq üçün peyvənd erkən aparılmalıdır. Peyvəndsiz keçinmək yaxşı fikir deyil. Çünki belə halda uşaq ciddi xəstəliklər qarşısında müdafiəsiz qalır. Tibbi səbəblər üzündən, eləcə də peyvəndə qarşı allergiyası olan uşaqların dəhşətli xəstəliklərdən qorunması ətrafındakı insanların immunitet sisteminin möhkəm olmasından asılıdır".

Təəssüf ki, koronavirus pandemiyası ilə bağlı fikirlər hələ də cəmiyyətdə, hətta dünyada birmənalı deyil. Həkimlər qaldı bir tərəfdə, insanlar sosial şəbəkələr üzərindən yayılan dezinformasiyalara o qədər aludə oldular ki, sanki hamı bu gözəgörünməz bəlanın mövcudluğuna şübhə ilə, yaxud ondan xilas yollarını stimullaşdıran, kömək edəcək vasitə və üsullardan istifadə məqsədi daşıyan qayda-qanunlara dırnaqarası yanaşdılar. Əslində, vəziyyət heç də o insanları çaşdıran məlumatlarda olduğu kimi deyildi. Məsələ bundan ibarətdir ki, söhbət insan sağlamlığından gedir, deməк, ilk növbədə, tibbi profilaktikanı unutmamalıyıq.

Xeyli vaxtdır sahə həkimi kimi çalışan Aygün Cəfərlinin məktəblilərlə bağlı layihələri də az olmayıb. Bir həkim kimi müşahidə etdiklərinə əsaslanaraq deyir ki, insanların tibbi maarifləndirməyə ciddi ehtiyacları var: "...Ailə həkimi kimi bunun dönə-dönə şahidi olmuşam. İnsanlar adicə müəyyən profilaktika, gigiyena qaydalarına əməl etmənin məqsədini və vacibliyini bilmirlər. Ona görə də sağlamlığın əsas şərtlərini bilmək, dəyərləndirmək lazımdır. Bunu ona görə deyirəm ki, insanlar müəyyən xəstəliklərin nədən yaranmasından və onun profilaktikasından xəbərdar olsunlar. Bundan ötrü tez həkimə müraciət etməsinlər. Özləri profilaktik qaydada tədbir görməyi bacarsınlar. Bu zaman həkimlərimizin də yükü azalmış olar. Bu, birinci məsələdir ki, məktəblərdə uşaqlarla işləyəndə həkim təbliğatı nədən başlamalıdır. Bundan başqa, sahə həkimləri həm də peyvəndləmə işini həyata keçirirlər".

Həkimin də xüsusi vurğuladığı kimi, bu gün yaşından asılı olmayaraq, hər kəsi maraqlandıran peyvənd məsələsidir. Söhbət, əlbəttə, yalnız koronavirus pandemiyasına qarşı aparılan peyvəndləmədən getmir. Bugünkü vaksinasiyaya qədər bir çox peyvəndlər edilib. Bu, əslində, ilk növbədə, uşaqlara aiddir. Körpə dünyaya gəldikdən sonra ata-ana yaxşı bilir ki, bəzi yoluxucu xəstəliklərdən uzaq olması üçün onlar mütləq peyvəndlənirlər. Hər birimiz müxtəlif peyvəndlər almışıq.

Elə peyvəndlər var ki, dövlət tərəfindən ölkə vətəndaşlarının (söhbət azyaşlılardan gedir) sağlamlığının qorunması, müxtəlif infeksion xəstəliklərə qarşı edilməsi məcburidir. Bu peyvəndlər dövlət müəssisələrində pulsuz edilir. Lakin elə peyvəndlər də var ki, onlar özəl sektorda fəaliyyət göstərən klinikalarda ödənişli əsaslarla edilir. Acınacaqlı hallardan biri də odur ki, bəzən, bəlkə də çox hallarda elə vətəndaşlarımız olur ki, yeni doğulmuş körpələri vurulacaq peyvəndlərdən uzaq saxlamağa çalışırlar. Bu, çox təhlükəli bir haldır. Onlar bilməyərəkdən öz övladlarının təbii sağlamlığının sanki qarşısına xəstəliklər çıxarırlar: "Körpə doğulduğu 12 saat ərzində ona Hep B (Hepatit B xəstəliyinə qarşı peyvənd), daha sonra 4-7-ci gün ərzində vərəm əleyhinə peyvənd (BCG) edilir. Bununla iş bitmir. Poliomielit əleyhinə olan peyvənd (OPV) damcı isə körpənin ağzına damızdırılır. Bunlar ilk 10 gün müddətində olan peyvəndlərdir. Hepatit B-yə qarşı damcı doğum evində, sonrakı həftə ərzində, digər peyvəndlərlə birlikdə poliklinikada edilir. Digər peyvəndlər uşağa 2-3-4-6 aylığında, 12 ayında (1 yaş), 18 ayında və 6 yaşında sorğu-sualsız vurulmalıdır.

İki aylığında körpələrə vurulan (HİB) "göyöskürək", "difteriya", "tetanus", "hepatit B" və "B tipli hemafil infeksiyasına qarşı" olan (bunların da 5-lik penta və 6-lıq hexa formatları var) peyvəndlərdir. Bunlar eyni zamanda 2,3 və 4 aylıqda, ayda bir dəfə olmaqla edilir. Həmin aylarda körpəyə poliomielitə qarşı peyvənd (damcı OPV) də verilir. 2-4-6-cı aylarda pnevmakokk (PK) infeksiyasına qarşı da peyvənd var. 6 aylıqda uşağa poliomielit vaksini (İPV) iynə şəklində vurulur. Bir yaşlı uşağa isə qızılca, parotit, məxmərəyə (QPM və ya MMR adlanır) qarşı peyvənd vurulur və vitamin-A damcı verilir. 18 aylığında (1.6 yaşında) "göyöskürək", "difteriya" və "tetanus"a qarşı peyvəndin (GDT)1-ci revaksinasiyası, poliomielit (OPV) damcının revaksinasiyası və vitamin-A damcı mütləqdir. 6 yaşında uşağa edilən peyvəndlər 1 yaşında edilən QPM-in təkrar revaksinasiyasıdır. Eyni zamanda 6 yaşında difteriya və tetanusa qarşı peyvənd olunur, ancaq 6 yaşında GDT deyil, DT forması şəkilində (tərkibində göyöskürək olmadan). Bunlar dövlət proqramı əsasında həyata keçirilir. Lakin özəl tibb müəssisələrində də qrip və digər xəstəliklər əleyhinə peyvəndlər edilir.

Hazırda ölkəmizdə qrip əleyhinə peyvənd var: 5-18 yaş arasında (daha tez-tez xəstələnən, risk qrupuna daxil olan uşaqlar üçün). İstənilən halda vətəndaşlarımız qeydiyyatda olduqları poliklinikalara gələrək həmin peyvəndləri uşaqlarına vurdura bilərlər".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







**B İ L D İ R İ Ş**

İmişli Suvarma Sistemləri İdarəsi tərəfindən 22 iyun 2021-ci il tarixdə maşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınması məqsədilə elektron formada keçirilmiş açıq tender prosedurlarının yekun protokolunun nəticəsinə əsasən, **Şərq-Qərb Təchizat MMC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 09 iyul 2021-ci il tarixdə 198583,50 manat məbləğində müqavilə imzalanmışdır.

*Tender komissiyası*

**B İ L D İ R İ Ş**

İmişli Suvarma Sistemləri İdarəsi tərəfindən 22 iyun 2021-ci il tarixdə mexaniki avadanlıqların satın alınması məqsədilə elektron formada keçirilmiş açıq tender prosedurlarının yekun protokolunun nəticəsinə əsasən, **Şərq-Qərb Təchizat MMC** qalib elan olunmuşdur.

Qalıb təşkilatla 09 iyul 2021-ci il tarixdə 50425,49 manat məbləğində müqavilə imzalanmışdır.

*Tender komissiyası*

# "Azercell"in rəqəmsal xidmətləri "Umico"da

Ölkənin lider mobil operatoru "Azercell" rəqəmsal xidmətlərini müştəriləri üçün daha da əlçatan edir. Artıq "Azercell" abunəçiləri "Umico" platforması üzərindən "Azercell"in BluTV, SberZvuk, IVI, Bookmate, NNTV kimi rəqəmsal həllərini aktiv edə bilərlər.




Xidmətdən istifadə qaydası çox sadədir. Bunun üçün öncə "Umico" tətbiqini "App Store" və ya "PlayStore"dən yükləmək lazımdır. Daha sonra "Umico"da "Bonuslar" səhifəsinə keçid edib "Azercell-Keşbekli xidmətlər" bölümü seçilməlidir.

Tətbiq vasitəsilə "Azercell"in rəqəmsal həllərinə günlük, həftəlik və aylıq paketlər şəklində qoşulmaq mümkündür. Qeyd edək ki, hazırda xidmət haqqı "Azercell" mobil nömrəsinin balansından tutulur.

# Azərbaycan aeronaviqasiyasında müasir rəqəmsal həllər tətbiq edilir

"Azərbaycan Hava Yolları" QSC-nin tərkibinə daxil olan "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) "yer-hava" sistemi üzrə məlumat ötürülməsinin təmin edilməsi üçün yeni ATC Data Link rəqəmsal həllinin tətbiqini başa çatdırmışdır.



AZANS regionda pilot və dispetçer arasında rabitəni (məlumat mübadiləsini) təmin etmək üçün nəzərdə tutulmuş D-ATIS, D-VOLMET, DCL və CPDLC kimi müasir rəqəmsal texnologiyalardan istifadə edən ilk hava hərəkətini idarəetmə mərkəzi oldu.

Yeni həllər eyni zamanda meteoroloji məlumatların və digər vacib aviasiya məlumatlarının Azərbaycanın hava məkanından istifadə edən bütün aviaşirkətlərin hava gəmilərinə ötürülməsinə imkan verir.

Tətbiq olunan sistem vasitəsilə aviaşirkətlər həmçinin dünyanın istənilən nöqtəsində Azərbaycanın aviasiya məlumatlarını rəqəmsal formada tez bir zamanda əldə edə biləcəklər. Yuxarıda sadalanan rəqəmsal həllər inkişaf etmiş ölkələrin aeronaviqasiya sənayesində geniş tətbiq olunur və proseslərin avtomatlaşdırılması sayəsində hava məkanının buraxılış qabiliyyətinin artırılmasına imkan yaradır. Bu cür həllərin əhəmiyyətli üstünlüklərindən biri də insan amilinə görə baş verən səhvlərin minimallaşdırılmasıdır və bu səbəbdən də uçuşların təhlükəsizliyinə müsbət təsir göstərəcək.

Yeni texnologiyaların tətbiqi Avropa səmasında aeronaviqasiya xidmətlərini yaxşılaşdırmaq və hava axınlarını optimallaşdırmaq məqsədi daşıyan ICAO-nun qlobal GANP planı və Avropa baş planı çərçivəsində həyata keçirilir.

Qeyd edək ki, sistem ICAO-nun standartlarına və Azərbaycanın mülki aviasiyası sahəsində tənzimləyici sənədlərə tam uyğundur.

"Azərbaycan Hava Yolları" QSC və "Azəraeronaviqasiya" HHİ uçuşların təhlükəsizliyinin artırılmasına və yeni aviaşirkətlərin regiona cəlb edilməsinə yönəlmiş ən müasir həllərin qabaqcıl inteqratoru olmaqda davam edir.

***"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidməti***

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC
## *açıq tender elan edir*

**LOT - 1.** Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işləri.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, tel: 496-52-05.

**İştirak haqqı: 1000,00 manat**

**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:**

**Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT-IBAZAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İştirakçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *müəssisənin rəhbərinin məhkumluq haqqında arayışı (notarial təsdiqli);*
- *mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektinə aid olmasına dair məlumat;*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri **17 avqust 2021-ci il saat 11:00-a** və tender təklifi ilə bank təminatı sənədlərini möhürlənmiş zərfdə Nəcəfqulu Rəfiyev, 17 ünvanına **23 avqust 2021-ci il saat 18:00-a** qədər təqdim etməlidirlər. İddiaçıların təklifləri **24 avqust 2021-ci il saat 11:00-da** Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" Publik Hüquqi Şəxs tərəfindən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Talassemiya bölməsi üçün spesifik dərman vasitələrinin satın alınması üzrə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə 01 iyun 2021-ci il tarixdə elan olunmuş müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinin tələbinə əsasən ləğv edilir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Pambıq çiyidinin toxumundan, günəbaxan və qarğıdalı bitkilərindən qida üçün yağ məhsullarının hazırlanması müəssisəsinin yaradılması layihəsi üzrə daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı elektron satınalma vasitəsilə keçirilmiş açıq tender prosedurunun davamından "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 07 may 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Pambıq bitkisinin gövdəsindən mebel sənayesində lazım olan yarımfabrikat lövhələrin hazırlanması layihəsi üzrə daxili bazar araşdırması ilə əlaqədar məsləhət xidmətinin satın alınması" ilə bağlı elektron satınalma vasitəsilə keçirilmiş açıq tender prosedurunun davamından "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən imtina edilmişdir.

***Tender komissiyası***

## OXUCULARIN NƏZƏRİNƏ!
## "AZƏRBAYCAN"
### *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC (012) 440-46-94, (012) 441-19-91*
*"Azərpoçt" ASC (012) 598-49-55, (051) 225-02-13*
*"Qaya" firması (012) 566-77-80, (050) 214-40-53*
*"Kaspi" MMC (012) 432-39-55, (012) 510-82-24*
*"Region Press" MMC (055) 316-79-01, (050) 316-79-01*
*"Səma-M" MMC (012) 594-09-59*
*"Ziya" LTD (012) 497-76-96, (050) 306-77-22*
*"Pressinform" MMC (012) 598-49-52, (070) 340-01-00*
*"City press" MMC (055) 819-09-26*

***1 illik***
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**
***6 aylıq***
**62,40 (altmış iki manat qırx qəpik) manat**
***3 aylıq***
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## B İ L D İ R İ Ş

Bakı Kommersiya Məhkəməsinin qanuni qüvvəyə minmiş 16.06.2020-ci il tarixli e-2-2(113)-1455/2020 nömrəli Qətnaməsi ilə "Lider TV və Radio-Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra "Borclu") müflis elan edilmiş və Abbasov Mikayıl Hümmət oğlu əmlak inzibatçısı təyin edilmişdir.

Bununla Borclunun kreditorları "Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 22 iyul 2021-ci il tarixdə saat 11:00-da Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev, ev 83/23 ünvanında keçiriləcək kreditorların ilkin yığıncağına dəvət edilir.

Kreditorlar 60 gün ərzində əmlak inzibatçısına aşağıdakı ünvana müraciət edərək tələblərini irəli sürə bilərlər: AZ1141, Bakı şəhəri, Yasamal rayonu, Şəfayət Mehdiyev, ev 83/23; Tel.: (99412) 4976158, (99412) 4978899 (111)

## Agricultural Competitiveness Improvement Project
## Loan No8286-Az
## AWARD NOTICE

**09.07.2021**

**Procurement of equipment and tools for private Veterinarians in 56 regions of Azerbaijan**

This notice includes findings of bid evaluation for the bidding process held for the **procurement of goods for private Veterinarians in 56 regions of Azerbaijan.**

The Invitation for Bids was advertised in **www.akia.gov.az** on April 22, 2021and in newspaper Azerbaijan, on April 24, 2021 and deadline for submission of bids was specified as May 27, 2021, 15:00 local Baku time.

Four (4) companies applied to the PMU for obtaining of the bidding documents:

| No | Name of Company | Country origin | Date of apply |
|---|---|---|---|
| 1 | "Dariservis" LLC | Azerbaijan | April 27, 2021 |
| 2 | "VetalHayvanSağlığıUrunleri" A.S | Turkey | May 05, 2021 |
| 3 | "Healthy Life" LLC | Azerbaijan | May 10, 2021 |
| 4 | "Tag IncBilishim Internet HizmetleriTicaret Limited" | Azerbaijan | May 12, 2021 |

All 4 (four) Companies submitted their bids by the deadline, May 27, 2021 by 15:00. Read-out prices were as follows:

| Name | Currency | Amount(s) (VAT included. DDP terms) | Comments on Bid opening |
|---|---|---|---|
| "VetalHayvanSağlığıUrunleri" A.S(Turkey) | USD | **1 469 895.20** | USD 30,000.00 |
| "Dariservis" LLC (Azerbaijan) | AZN | **2 646087.76** | AZN 50,000.00 |
| "Healthy Life" LLC(Azerbaijan) | AZN | **2 742371.77** | Not submitted |
| "Tag IncBilishim Internet HizmetleriTicaret Limited"(Turkey) | USD | **1 585762.08** | USD 30,000.00 |

Considering the detailed check results, the Evaluation Committee issued the recommendation to award the Contract to substantially responsive and lowest evaluated Bidder **"VetalHayvanSağlığıUrunleri" A.S (Turkey)with the Contract amount 1 469 895.20 (one million four hundred sixty nine thousands eight hundred ninety five USD and twenty cent) included VAT, DDP Terms of supply.**

**Contract was signedon July 08, 2021.**

## B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən agentliyin korporativ elementlərinin (loqo və rənglər) tələblərinə əsasən təsdiq edilmiş dizayn konsepti əsasında hazırlanmış yaylıq və qalstukların satın alınması məqsədilə 24.05.2021-ci il tarixdə dövlət satınalmaları üzrə vahid internet Portalında və "Azərbaycan" qəzetinin 25 may 2021-ci il tarixli nömrəsində elan edilmiş açıq tender üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən, malgöndərənlərin sorğusu əsasında tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu 16 iyul 2021-ci il saat 18:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 17 iyul 2021-ci il tarixdə saat 17:00-da keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Sahib Mirzəyevə əzizi

**RAHİB MİRZƏYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova və Milli Məclisin deputatı İlham Məmmədova əzizləri

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin kollektivi Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədova bacısı

**MƏRYƏM XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin elmi işlər üzrə prorektoru Rauf Bəylərova anası

**FAZİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4061
Sifariş 1219
Qiyməti 40 qəpik